


# Azərbaycanda son sutkada 3 614 nəfər COVID-19-a yoluxub, 23 nəfər ölüb

*Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 3 614 yeni yoluxma faktı qeydə alınıb, 1 114 nəfər müalicə olunaraq sağalıb. Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Unikal"a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 23 nəfər vəfat edib.*

Səh.2


# UNİKAL

№30 (2068) 20 avqust 2021-ci il

Qiyməti 40 qəpik

Qurucusu: Asəf Rzayev

www.unikal.org

unikal-1@mail.ru




# Cavanşir Feyziyevin adı ətrafında 1 milyonluq tender qalmaqalı

## Azərbaycanın dərman bazarında böyük payı olan deputatın oğlu Dövlət Agentliyinin dərman preparatları ilə bağlı müsabiqəsində necə qalib gəlib?

*Yola salmaq üzrə olduğumuz həftənin ən çox müzakirə olunan mövzularından biri İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin böyük məbləğli tenderi, daha doğrusu, həmin tenderin nəticəsi ilə bağlı idi. 5 ildir fəaliyyətə başlayan bu qurumun işindən razılıq edən bir nəfər belə tapmaq çətin məsələdir.*

*Əvəzində isə Agentliklə bağlı daim tənqidlərin səsləndirildiyinə şahid oluruq. Cəmiyyətdə geniş səs-küy yaradan tender isə adıçəkilən qurumun adını növbəti dəfə neqativ planda gündəmə gətirdi. Söhbət nədən gedir? Məsələ burasındadır ki, Agentlik Bakı ətrafında, Buzovna qəsəbəsində 1 illiyə ofis və anbar icarəyə götürüb. Müqavilənin dəyəri isə nə az, nə çox, 1 mln. 176 min manatdır. Bir sözlə, agentlik obyekti aylıq 98 min manata icarəyə götürüb, özü də Buzovnada!*

Səh.6

Səh.2



# Azərbaycan üçün növbəti kritik mərhələ başlayıb

## "Müharibədə Ermənistanla birgə Rusiya da məğlub olub"



*Qarabağ Azadlıq Təşkilatının sədri Akif Nağı "Unikal" qəzetinə müsahibə verib. A.Nağı son dövrlər Ermənistan tərəfinin törətdiyi təxribatlar, Rusiya sülhməramlılarının mövqesizliyi və digər məsələlər barədə fikirlərini bölüşüb. -Akif bəy, Ermənistan tərəfi 44 günlük müharibədən sonra razılaşmaya əməl etməyərək təxribatlarını davam etdirir.*

Səh.4

## Ziya Məmmədovun dövlətə vurduğu milyonlarla manatlıq daha bir ziyan



*Artıq bir neçə ildir ki, mütəmadi olaraq Bakıya gətirilən yüzlərlə "London taksi"si istifadəyə yararsız halda qarajlarda toplanır. Hətta həmin avtomobillər qarajın ərazisinə yerləşməyib, yağışın, günün altında yollara səpələnib. Hətta yerli telekanallardan biri bu barədə video-material hazırlamış və...*

Səh.8

## Diaspor təşkilatları Azərbaycanın xaricdəki haqq səsi olmalıdır!



*Ermənistan-Azərbaycan münaqişəsi dövründə, həmçinin 44 günlük müharibə müddətində Azərbaycan xalqı bir olaraq Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşməyi bacardı. Azərbaycanın haqq səsinin dünyaya çatdırılmasında ən böyük iş isə hər zaman olduğu kimi, xaricdəki diaspor təşkilatlarının üzərinə düşdü.*

Səh.11

# Matanla duet oxudu - Xumardan sürpriz



***Hər nəğməsi, hər ifası hitə çevrilən sevilən ulduz Xumar Qədimova pərəstişkarlarına vəd etdiyi sürprizi təqdim edib.***

"Heç bir şey söyləmə" adlanan yeni duet Xumarsevərlərə çox şey söyləyəcək.

Çünki yeni nəğməni Xumar Qədimovanın "Əqrəb"indən duyacaqsınız. Qədimovanın duet ortağı həyat yolunda hər zaman sirdaşı, dostu, dayağı olan bacısı Matandır. Böyük ürəyə və möhtəşəm səsə malik olan Matan, nəhayət, bacısının səsinə səs verib.

"Matan bir bacının ötəsində olan varlıqdır. İllərdir mənim üçün göstərdiyi əzm, əmək, fədakarlıqla yanaşı, gözəl səsi ilə də sənətimi bəzədi" deyə, Əməkdar artist vurğulayıb.

# Xanbabayeva dünya şöhrətli musiqiçi ilə əməkdaşlığa başladı

***Xalq artisti Zülfiyyə Xanbabayeva uzun fasilədən sonra yeni musiqi layihəsini təqdim edib.***



Məşhur müğənni sözləri Miro, musiqisi Ramin Əliyə məxsus "Sonuncu oyun" mahnısını ekranlaşdırıb. Klipin rejissoru Delee Orucludur.

Mahnının masterinqini uzun illərdir dünya ulduzları Selena Qomez, Kristina Aqulera, Dua Lipa, Alisia Keys, The Weekend və digərləri ilə əməkdaşlıq edən amerikalı musiqiçi Devid Kutç edib.

"Devidi Ramin təklif etdi. Çox ağıllıdır, musiqi aləmində baş verən hər şeylə maraqlanır, ən yaxşı mütəxəssislərin əsərlərini bilir və hətta onlarla əlaqə qurmağı bacarır. Mən də hər zaman keyfiyyətin tərəfdarıyam! Həm səs baxımından, həm də video baxımından hər mənada aktual görünəcək bir işi təqdim etmək istədik. Çox çalışdıq, amma qiyməti əlbəttə ki, tamaşaçı verəcək",- deyə Xanbabayeva bildirib.

# Xalq artisti əfqan uşağını himayəsinə götürmək istədi - tənqid edildi



***Xalq artisti Naibə Allahverdiyeva Əfqanıstandan olan bir uşağı övladlığa götürmək istəyib.***

Unikal.org xəbər verir ki, bu haqda aktrisa özü məlumat verib. O bildirib ki, bunu necə edəcəyi ilə bağlı məlumatsızdır.

"Çox istərdim əfqan uşaqlardan birini himayəmə götürüm, anası olum. Amma hara müraciət edəcəyimi bilmirəm" deyə, Allahverdiyeva qeyd edib.

Onun bu sözləri isə tənqidlə qarşılanıb. Sosial şəbəkə istifadəçiləri ona Azərbaycanda kimsəsiz uşaq evindən uşaq götürməsini yazıblar.

Aktrisa tənqidlərə "Bizim uşaq evində olanlar dövlət himayəsindədir. Onlar isə dövlətsiz, sahibsizdilər. Qəlbində imanı, mərhəməti olan məni başa düşər. Onlardan bir uşağı himayəyə götürmək onun həyatını xilas etmək deməkdir. O uşaqları qul kimi satırlar, öldürürlər" cavabını verib.



# Pərvin Abıyevanın evindən 120 min manat oğurladılar

***Aktrisa Pərvin Abıyeva maraqlı açıqlaması ilə gündəmə gəlib.***

Unikal.org xəbər verir ki, "Onun sirri" proqramına qonaq olan aktrisa evində baş verən oğurluq hadisəsindən danışıb.

Pərvin evindən 120 min AZN məbləğində pulun tanış adam tərəfindən oğurlandığını bildirib: "Bu oğurluğu kimin etdiyini bilirəm. Onu tapdıq. Lakin pulu geri ala bilmədik. Çünki artıq xərcləmişdi.

Bu oğurluq hadisəsi bir şəxsi məsələdir. Yəni ailə daxili məsələdir deyə ictimaiyyətin bu haqda məlumatı yox idi. Çünki bilsəydilər? deyəcəklərdi ki? "Pərvin 120 min AZN-i haradan alıb?" Ona görə efirlərdə deməyə çəkindim".

# Azərbaycanda gənc xanəndə vəfat etdi

***Gənc azərbaycanlı xanəndə Tuqay İsmayılov vəfat edib.***



Bu barədə kamança ifaçısı Pərviz Fərhadov məlumat verib. Xanəndənin dəqiq ölüm səbəbi açıqlanmasa da, bir həftəyə yaxındır ki, onun özünü narahat hiss etdiyi bildirilib. 1986-cı il təvəllüdlü müğənninin vəziyyəti bu gün səhər saatlarından ağırlaşıb. Ehtimal edilir ki, T. İsmayılov koronavirusdan dünyasını dəyişib.

Qeyd edək ki, müğənni yüksək səs diapazonuna görə son dövrlərdə populyarlıq qazanmışdı.

# Tolik İlhamə Quliyeva haqda: "Sağlığında qapına gül düzən "manıslar" indi şəklini paylaşmadılar"

***Xalq artisti İlhamə Quliyeva yaşasa, 78 yaşı tamam olacaqdı. Avqustun 17-i mərhumun doğum günü idi. Bu münasibətlə sevənləri, sənət dostları sosial şəbəkələrdə onu yad ediblər.***

Prodüser Tarix Əliyevin( Tolik) paylaşımı xüsusilə diqqət çəkib. O, statusda bu sözləri yazıb: "Yoxluğunda çoxu istəsə də, nə yerini tuta bildilər, nə də sən oldular. Ola bilməyəcəklər də! Sağlığında qapına güllər düzən bəzi manıslar indi kimdənsə, nədənsə çəkinib şəklini paylaşmadılar. Sən İlhamə oldun, sözünü dedin, tarixdə qaldın".



# “Zəngəzur dəhlizi” açılanda Nüvədi kəndi Azərbaycana qaytarılmalıdır! - TƏLƏB

***İrəvan Türk Cümhuriyyətinin mühacir hökuməti Ermənistanın nəzarətində olan Nüvədi kəndinin Azərbaycana qaytarılması üçün Prezident İlham Əliyevə və Azərbaycan Milli Məclisinə müraciət ünvanlayıb.***

Bu barədə Modern.az-a İrəvan Türk Cümhuriyyətinin təsisçisi, ermənişünas alim Qafar Çaxmaqlı məlumat verib. Q.Çaxmaqlı ümid edir ki, Milli Məclisin qarşıdan gələn payız sessiyasında həmin müraciətə baxılacaq: “Zəngəzur dəhlizinin açılması ilə orada yerləşən kəndlərin bir çoxunun Azərbaycanın nəzarətinə keçməsi mümkündür. Çünki ermənilər orada yaşaya bilməzlər. Nüvədililər və digər kəndlərin əhalisi kəndlərin geri qaytarılmasını tələb edirlər. Milli Məclisə müraciət etmişik ki, verilən qərarlara yenidən baxılsın.

Biz Nüvədi sakinlərinin də iştirakı ilə böyük konfrans keçirdik. Əvvəlcə bəyanat yaydıq, mətbuatda da dərc olundu. Sonra isə Milli Məclisin spikeri Sahibə Qafarovaya bununla bağlı məktub ünvanladıq.

Nüvədi kəndinin Ermənistana verilməsi məsələsi 1929-cu ildə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Levon Mirzəyanın təkidi ilə qaldırılıb. Bəhanə isə bu olub ki, indiki Mehri rayonu yaradılır, ərazisi və əhalisi azdır. Ona görə Azərbaycan həmin kəndi güzəştə getməlidir. SSRİ Ali Soveti isə verilən qərarı yalnız 1969-cu ildə təsdiq edib. Ona görə, bu kəndin Ermənistana verilməsinin qanunsuz olduğunu ortaya qoyuruq. Qərar qəbul olunanda, heç bir səsvermə, referendum keçirilməyib, əhalinin rəyi nəzərə alınmayıb. Qərarın ləğvi üçün Milli Məclisə müraciət etmişik”.

Qafar Çaxmaqlı Nüvədi kəndinin 1000 nəfərdən artıq sakininin imzası ilə Azərbaycan Prezidentinə müraciət ünvanlandığını da söyləyib: “Həmin müraciətdə də vurğulanır ki, Prezident bu məsələnin həllinə kömək etsin. Mənə elə gəlir ki, Azərbaycan Milli Məclisinin Nüvədi kəndi ilə bağlı qərarın ləğv edilməsinə tam səlahiyyəti var. Anunverici orqan payız sessiyasında məsələni gündəliyə daxil edib, müzakirəyə çıxara bilərlər. Bu qərar ləğv olunandan sonra əhalinin həmin əraziyə yerləşdirilməsinə yol açılacaq”.

Nüvədi kəndi 1929-cu ildə Azərbaycan SSR-nin Zəngilan rayonunun tərkibindən alınaraq, Ermənistan SSR-nin Mehri rayonunun tərkibinə daxil edilib. 1991-ci ilin avqust ayında kəndin azərbaycanlı əhalisi deportasiya edilib və yaşayış məntəqəsi ermənilər tərəfindən işğal olunub.

# Çavuşoğlu Türkiyənin “Taliban”la bağlı mövqeyini açıqladı

***Türkiyənin xarici işlər naziri Mevlüt Çavuşoğlu ölkəsinin “Taliban” hakimiyyətinin qurulmasına münasibətini açıqlayıb.***

“Unikal” xəbər verir ki, bu barədə məlumatı “NTV” yayıb. Məlumata əsasən, Mevlüt Çavuşoğlu jurnalistlərin Əfqanıstanda yeni hökumət yaradılması və bu yaradılan hökumətə münasibət barədə suallarına cavab verib.

“Öncə hökumətin necə qurulacağını görməliyik. ”İnklüziv bir hökumət quracayıq” deyirlər. Həqiqətən də inklüziv hökumətin qurulub-qurulmamasını görməliyik. Beynəlxalq ictimaiyyət ilə birgə hərəkət edəcəyik. Verəcəyimiz mesajlar və atacağımız addımlar da koordinasiya ediləcək. Hazırda öncədən qərar vermək düzgün olmaz”, - deyə Çavuşoğlu vurğulayıb.

# "6 ay əvvəlki ilə bugünkü Şuşa arasında böyük fərq var" - Sədr

***Altı ay əvvəlki ilə bugünkü Şuşa arasında böyük fərq var. Şuşada abadlıq işləri aparılır, bir sıra iaşə obyektləri tikilir.***

“Unikal”ın məlumatına görə, bunu jurnalistlərə açıqlamasında Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin İdarə Heyətinin sədri Məftun Abbasov deyib.

“Şuşada ilk olaraq Prezidentin xüsusi nümayəndəliyinin, Dövlət Qoruğu İdarəsinin yaradılması, Şuşanın dövlət qoruğu elan edilməsi, Azərbaycan ilə qardaş Türkiyə arasında Şuşa Bəyannaməsinin bu tarixi şəhərimizdə imzalanması Prezident İlham Əliyevin Şuşaya xüsusi önəm verdiyini əyani şəkildə göstərir”, - deyə Məftun Abbasov bildirib.

Sədr qeyd edib ki, artıq “Zəfər yolu”nda da tamamlanma işləri gedir. ”Şuşanın partlamamış silah-sursat və minalardan təmizlənməsi istiqamətində işlər aparılır. Yaxın vaxtlarda bu proses yekunlaşacaq. Şuşanın qapısı şuşalılara açıqdır. Bura səfərlər təşkil olunacaq. Biz bu səfərlərdə əsasən yaşlı nəslin nümayəndələrinə üstünlük verəcək, sonra yavaş-yavaş cavan nəslin nümayəndələrinin də səfərlərini təşkil edəcəyik”.

# Ziya Məmmədovun dövlətə vurduğu milyonlarla manatlıq daha bir ziyan

## Eks nazirin “London taksiləri” layihəsi batdı, özü ilə büdcənin külli miqdarda pulunu da batırdı

***Artıq bir neçə ildir ki, mütəmadi olaraq Bakıya gətirilən yüzlərlə “London taksi”si istifadəyə yararsız halda qarajlarda toplanır. Hətta həmin avtomobillər qarajın ərazisinə yerləşməyib, yağışın, günün altında yollara səpələnib.***

Hətta yerli telekanallardan biri bu barədə videomaterial hazırlamış və həmin süjetdə bir daha təsdiqlənmişdi ki, sözügedən taksilər təkəri boşalmış, mühərriksiz və bir neçə hissəsi çıxarılmış halda qarajda çürüməkdədir.

Məsələ ilə bağlı açıqlama verən Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin tabeliyindəki “Bakı Taksi Xidməti” MMC-nin baş direktoru Fuad Əliyev isə bildirmişdi ki, pandemiya ilə əlaqədar olaraq taksi xidmətinə tələbatın azalması səbəbindən bu avtomobillər qarajlarda qalıb.



Əlbəttə, baş direktorun sözləri ən azından təəccüb doğururdu. Çünki sərt karantin rejimi çərçivəsində ictimai nəqliyyatdakı məhdudlaşdırmalar taksilərə ehtiyacı artırmışdı.

Elə taksi sürücülərinin sözləri də F.Əliyevin dediklərini yalana çıxarırdı. Belə ki, sürücülər sözügedən avtomobillərin icarəsinin baha olduğu üçün onlardan imtina edildiyini söyləyirlər.

Bir sözlə, sabiq nazir Ziya Məmmədovun dövlətə milyonlarla manata başa gələn daha bir layihəsi iflasa uğramış görünür. Əslində “London taksiləri”nin istənilən effekti verməyəcəyi başından bəri məlum idi.

Əvvəla, həmin avtomobillərin real dəyərindən qat-qat baha qiymətə alındığı barədə faktlar ilk günlərdəncə ortaya çıxmış, bununla da layihədə korrupsiya elementlərinin olması əksəriyyətdə heç bir şübhə yaratmamışdı. Təcrübə isə göstərir ki, bu və ya digər dərəcədə korrupsiyanın bulaşdığı proyektlərin səmərəliliyindən danışmaq boş söhbətdir.

İkincisi, “London taksiləri” projesinin düzgün hazırlanmadığı və idarə olunmadığı da göz qabağındadır. Bu layihənin startından cəmi bir neçə il sonra Azərbaycanda özəl taksi xidməti şirkətləri meydana çıxdı, hazırda isə həmin sahədə əməlli-başlı rəqabət hökm sürür. Sözügedən şirkətlərin ciddi mənfəətlə çalışdığı da hər kəsə məlumdur. Elə isə “London taksiləri” projesi hansı məntiqlə iflasa uğraya bilərdi? Həm də bazarda tamamilə boşluğun, rəqabətsizliyin hökm sürdüyü bir vaxtda!

Görünən odur ki, Ziya Məmmədov taksilərin alınması ilə işini bitmiş sayıb və həmin taksilərdən səmərəli istifadə üçün hər hansı doğru-dürgün plan hazırlamayıb, yaxud hazırlatdırmayıb. Belə çıxır, məqsəd sadəcə büdcə pullarını havaya sovurmaq olub, vəssalam!

Ümumiyyətlə, eks-nazir yüz milyonlarla manatlıq dövlət vəsaitləri hesabına başa gələn uğursuz layihələr müəllifi olaraq xarakterizə edilə bilər. Məsələn, Nəqliyyatın İntellektual İdarəetmə Mərkəzini götürək... Yüz milyon manatdan artıq vəsaitin xərcləndiyi bu Mərkəz elə ilk günlərdəncə öz yarıtmaz fəaliyyəti ilə istər medianın, istərsə də ekspertlərin tənqid hədəfinə çevrildi. Halbuki həmin layihəni Ziya müəllim və komandası cəmiyyətə böyük bir təntənə ilə təqdim eləmişdi. İddia olunurdu ki, Nəqliyyatın İntellektual İdarəetmə Mərkəzi sayəsində xüsusilə Bakıda tıxaclar kəskin azalacaq, paytaxtda nəqliyyatın xaotik durumu aradan qalxacaq.

Ancaq deyilənlərin heç biri baş vermədi, əvəzində isə milyonlarla manat dövlət vəsaiti növbəti dəfə havaya sovrulmuş oldu.

Ən qəribəsi isə odur ki, bütün bu uğursuz layihələrə görə Ziya müəllimin ədalət mühakiməsi qarşısında cavab verəcəyinə dair ümidlər, gözləntilər də elə ümid, gözlənti olaraq qaldı. Halbuki korrupsiyaya qurban gedən bu layihələrin dövlət büdcəsi üzərində ağır yükə çevrilməsinin hesabı mütləq və mütləq soruşulmalı idi. Əks təqdirdə bu, zaman-zaman başqalarını da doğru hazırlanmamış, perspektivi düzgün hesablanmamış layihələrlə dövlət vəsaitlərini talan etməyə həvəsləndirə bilər.

Yeri gəlmişkən: ara-sıra jurnalistlərə şeir yazması, ibadətlə məşğul olması, mal-qara saxlaması, arpa-yonca əkib dolanışığını “birtəhər” təmin eləməsi barədə açıqlamalar verən Ziya Məmmədovdan həm “London taksiləri”, həm də Nəqliyyatın İntellektual İdarəetmə Mərkəzi barədə də açıqlama verməsini gözləyirik.

Maraqlıdır, sabiq nazir hər biri yüz milyonlarla manata başa gələn bu layihələrin iflası barədə, görəsən, nə düşünür? Daha doğrusu, nəsə düşünürmü?!

***Hüseyn İsgəndərov***

# Azərbaycan üçün növbəti kritik mərhələ başlayıb

## Ermənistanın Azərbaycanla sülh sazişi və sərhədlərin müəyyənləşməsi məqsədilə danışıqlara başlaması üçün təzyiqlərimizi davam etdirməliyik

***Rusiya, Azərbaycan və Ermənistan baş nazir müavinlərindən ibarət üçtərəfli işçi qrupu avqustun 17-də Moskvada yenidən toplandı. Görüşdə tərəflər regionda nəqliyyat kommunikasiyalarının bərpasının perspektivlərini və Azərbaycan Prezidenti, Ermənistan baş naziri və Rusiya Prezidentinin 2021-ci il yanvarın 11-də imzaladıqları bəyanatın yerinə yetirilməsi məsələlərini müzakirə etdilər.***

Ermənistan bir müddət komissiyanın işinə qatılmaqdan imtina etdi. Bu da Ermənistanın savaş meydanından qaçdığı kimi, diplomatik müzakirə meydanından da qaçdığını göstərir. Eyni zamanda, Ermənistan tərəfi sərhəddə təxribatlar törətməklə ortada olan razılaşmaya əməl etmək istəmədiyini və mümkün qədər problemin uzun müddət davam etməsində maraqlı olduğunu ortaya qoyur. Lakin Azərbaycanın bu vəziyyətlə barışmadığı ortadadır. Belə ki, ölkə başçısı İlham Əliyev münaqişənin artıq bitdiyini və tərəflərin razılaşmaya əməl etməli olduqlarını bəyan edib. O bir daha vurğulayıb ki, 10 noyabr razılaşmasında qeyd olunan bütün öhdəliklər yerinə yetiriləcək.

Bu barədə fikirlərini "Unikal" qəzeti ilə bölüşən "Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu deyib ki, Ermənistanın birinci bəhanəsi o idi ki, parlament seçkiləri keçirildikdən və yeni hökumət formalaşandan sonar komissiyanın işinə qatıla bilərlər. Onun qənaətincə, Ermənistanın ikinci bəhanəsi sərhəddəki gərginliklə bağlı idi, yəni Azərbaycanla gərginlik olduğu müddətdə kommunikasiya xətlərinin açılmasına razılaşa bilməzlər:

"Bu bəhanələrə baxmayaraq, Ermənistan hakimiyyəti yenidən masaya qayıtdı. Ancaq üc?tərəfli is?c?i qrupun yenidən Moskvada toplanaraq kommunikasiya xətlərinin açılmasıyla bağlı müzakirələrin davam etməsi hələ Ermənistan hakimiyyətinin məsələni uzatmayacağından xəbər vermir. Ermənistanın baş naziri Nikol Paşinyan bir tərəfdən deyir ki, Azərbaycanla dəhlizin açılması zərurəti yarana bilər, o biri tərəfdən də Zəngəzur koridorunun əleyhinə olduğunu vurğulayır. Paşinyan tərəddüd içərisindədir. O bir tərəfdən koridor vasitəsilə bölgədə sülhün bərpası istiqamətində önəmli addımın atılacağını anlayır, digər tərəfdən isə güzəştə gedən tərəf kimi görsənmək istəmir. Onun tərəddüdünü Moskva çözə bilər. Rusiya 11 yanvar bəyanatının əsas bəndini əlində rəhbər tutaraq koridorun açılmasını təmin edə bilər. Ancaq problem ondadır ki, Rusiyanın özü də 10 noyabr və 11 yanvar bəyanatlarına sadiq deyil. Əks halda Laçın dəhlizindən silah, hərbi texnika və muzdlu hərbçilər Qarabağa keçməməli, Qarabağda qanunsuz postlar qurulmamalı və erməni separatçıları tərksilah olunmalıydılar. Bunların heç biri baş vermir. Rusiyanın bölgədə sülh quruculuğu ilə məşğul olmadığını prezident İlham Əliyev də son müsahibəsində bildirdi. Ona görə də Moskvanın kommunikasiya xətlərinin açılması məsələsində də ikili oynadığına dair şübhələr var. Kreml kommunikasiya xətlərinin açılmasıyla Azərbaycan, Türkiyə və Mərkəzi Asiya ölkələrinin bir-birləriylə sıx bağlanacaqlarından ehtiyat etməyə başlayıb. Halbuki, Zəngəzur dəhlizindən Rusiyanın özü də bəhrələnə bilər. Moskvada anlamalıdırlar ki, Abxaziya, Cənubi Osetiya və ya Donbass separatçılarından fərqli olaraq Qarabağdakı erməni separatçıları mühasirədədirlər və Azərbaycan ordusu bu mühasirəni daraltmaq istiqamətində fəaliyyətini davam etdirəcək. Ona görə də nə qədər ki, növbəti müharibə başlamayıb Moskvanın 10 noyabr və 11 yanvar bəyanatlarının yerinə yetirilməsini təmin etməsinə ehtiyac var. Yeni müharibə Ermənistan kimi Rusiyanın da maraqlarına cavab vermir. Biz isə istənilən variant hazırıq. Növbəti mərhələdə Ermənistanın Azərbaycanla sülh sazişi və sərhədlərin müəyyənləşməsi məqsədilə danışıqlara başlaması zərurəti də yaranacaq. Biz istədiyimiz nəticələri əldə etmək üçün təzyiqlərimizi davam etdirməliyik".



Təkamül Partiyasının sədri Teyyub Qənioğlu son dövrlər Rusiyanın və sülhməramlı qüvvələrin davranışlarına münasibət bildirib. O qeyd edib ki, vertalyot təxribatı törədərək "sülhməramlı" adı altında Azərbaycan ərazisinə soxulan, sözdə bu ərazilərin Azərbaycana aid olduğunu söyləyən, reallıqda isə işğal etdiyi əraziləri özününkü hesab edən Rusiya sözün əsl mənasında həddini aşmaqda davam edir: "10 noyabr 2020-ci il tarixli üçtərəfli sazişin ziddinə olaraq nəinki erməni silahlı qüvvələrinin (əslində terrorçuların) "sülhməramlıların" nəzarət etdiyi ərazilərdən çıxarılmasına mane olur, əksinə, onları silahlandırır, bu azmış kimi yeni terroçuların Ermənistandan bu ərazilərə daşınmasına hərtərəfli yardım edir. Ermənistanı silahlandırmaqla, onun məhv edilmiş ordusunu dirçəltməklə onu Azərbaycana qarşı yeni müharibəyə hazırlayır, Ermənistanı sərhəddə təxribatlar törətməyə təhrik etməklə regionda yeni münaqişə vəziyyəti yaratmağa cəhd edir.

Rusiya öz hərəkətləri ilə Ermənistan və Azərbaycan arasında sülh sazişinin bağlanmasına mane olur, erməniləri zorla Xankəndində, Xocalıda, Xocavənddə və nəzarət etdikləri digər ərazilərdə saxlamaq üçün onların sosial problemlərini həll edir".

Partiya sədrinin sözlərinə görə, hər şeydən göründüyü kimi, Rusiya seperatçı Abxaziya, Cənubi Osetiya və Dnestr bölgəsində həyata keçirdiyi "passport əməliyyatını" Azərbaycanda da tətbiq etməyə hazırlaşır: "Bu məsələyə toxunan Rusiyanın XİN rəhbəri S.Lavrov açıq-aşkar bəyan edir ki: "Rusiya beynəlxalq hüququ pozmur, birincisi, hər bir ölkə özü müəyyənləşdirir ki, kimə vətəndaşlıq verə bilər, ikincisi, hər bir insan da hansı ölkənin vətəndaşı olmaqda sərbəstdir".

Belə çıxır ki, ermənilər də Rusiya vətəndaşlığı almaqda sərbəsdirlər!? Bu cənab unudur ki, belə olduqda Azərbaycan da öz ərazilərindən xarici ölkə vətəndaşlarını deportasiya etmək hüququna malikdir. Rusiya nəinki yaşlı nəsli, erməni uşaqlarını və gənclərini də Azərbaycana qarşı gələcək müharibəyə hazırlayır. KİV-də yayılan məlumatlara görə Rusiya sülhməramlı kontingentinin hərbçiləri Dağlıq Qarabağın bütün bölgələrindən olan 13-18 yaş arası uşaqlar üçün dağlarda sağ qalmağın əsasları öyrədilən "gənc döyüşçü" kursu keçiriblər. "Sülhməramlılar" bu uşaqlara Dağlıq Qarabağdakı missiyalarını izah edib, onlara istehkamçılar tərəfindən yoxlanılmamış ərazilərdə oyunların gətirə biləcəyi təhlükələr, habelə ilk tibbi yardımın göstərilməsi üsulları haqda danışıblar. Bunu necə adlandırmaq olar cənab "sülhməramlılar"? Bu erməni dığalarını qondarma "Arsax" uğrunda gələcək müharibəyə hazırlamaq məqsədi daşımırmı? Rusiya "sülhməramlıları" Azərbaycanın etirazlarına məhəl qoymayaraq onun icazəsi olmadan Rusiya, Ermənistan, İran və.s. dövlətlərin vətəndaşlarının, müəmmalı yük daşıyan maşınlarının Azərbaycan ərazisinə girişinə hərtərəfli şərait yaradır və s. İndiyədək Azərbaycan Rusiyanı "strateji müttəfiq" hesab edərək onun bu "şıltaqlıqlarına" dözümlü yanaşır, bir növ gözləmə mövqeyi tuturdu. Həm Rusiya, həm də Azərbaycan bir-birini, siyasət xatirinə, sözdə "strateji müttəfiq" adlandırsalar da, reallıqda bunun belə olmadığının fərqində idilər, ancaq bunu açıb-ağatmırdılar.

Azərbaycan ərazisini işğal edən, onu ikiyə bölən, zor gücünə Azərbaycanın əzəli və əbədi torpaqlarında qondarma erməni "dövləti" yaradan və daim ondan Azərbaycana qarşı bir alət kimi istifadə edən və indi də buna davam edən Rusiyadan Azərbaycana strateji müttəfiq olarmı? Ancaq Rusiyanın Azərbaycana qarşı sözün əsl mənasında düşmənçiliyi reallığın olduğu kimi adlandırılmasını zəruri edirdi və Azərbaycan Prezidenti İlham Əliyev "CNN Türk" televiziya kanalına verdiyi müsahibədə ilk dəfə bunu etdi. İ.Əliyev ilk dəfə idi ki, Rusiyanı "strateji müttəfiq" yox "Azərbaycanın qonşusu və Ermənistanın yaxın müttəfiqi" adlandırdı.

Bu isə "düşmənimin yaxın mütəfiqi mənim də düşməmimdir" anlamına gəlir. Beləliklə Azərbaycan mifik "strateji müttəfiq"likdən reallığa doğru qəti addım atmış oldu. Və Rusiyanın nəzərinə çatdırdı ki, Azərbaycan öz süveren hüquqlarını qorumaq əzmindədir və heç kim buna mane ola bilməz! Rusiya siyasətçiləri bunun nə demək olduğunu yəqin ki, yaxşı başa düşürlər. Qalır onların bundan nəticə çıxarmaları. Qərbdən (Ukrayna, Pirbaltika respublikaları) Şərqdən (Yaponiya), cənubdan (Gürcüstan) dost olmayan dövlətlərlə əhatə olunan Rusiyaya Azərbaycan və Türkiyənin timsalında yeni dost olan ölkələr lazımdırsa bunu alacaqdır! Bunun nə ilə nəticələnə biləcəyini düzgün hesablayın, Rusiyanın cənab siyasətçiləri".

***Z.Məmmədli***

# Şuşa sakinlərinin şəhərə ilk səfəri baş tutub



***Dünən 50 nəfər Şuşa sakini şəhərin azad olunmasından sonra ilk dəfə öz doğma yurdlarını görmək imkanı qazanıblar.***

Prezidentin Şuşa rayonunda xüsusi nümayəndəliyi və Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin birgə təşkil etdiyi səfərdə ilk olaraq yaşlı nəslin nümayəndələri, Qarabağ qaziləri, şəhərin ziyalıları iştirak ediblər.

Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin İdarə Heyətinin sədri Məftun Abbasov şuşalıları salamlayaraq qeyd edib ki, bu gün şəhərin tarixində önəmli gün kimi qalacaq: "Əminəm ki, 29 illik həsrətdən sonra Şuşanı görmək sizlər üçün böyük bir hadisədir. Ali Baş Komandan İlham Əliyevin "Dəmir Yumruq" əməliyyatı və Ordumuzun şücaəti sayəsində azad olunan Şuşa şəhərinə qayıdan ilk sakinlər sizlər olmusunuz və müəyyən müddətdən sonra bütün Şuşa sakinləri öz doğma şəhərlərinə qayıda biləcəklər".

M.Abbasov bildirib ki, erməni vandallarının şəhərə vurduqları ziyanı hər bir küçədə, evdə görmək mümkündür. Buna baxmayaraq, şəhərin Baş planına uyğun olaraq, şəhərdə bərpa və yenidən qurma işləri tam gücü ilə davam edir, küçələr və parklar yenilənir, şəhərin həyat əhəmiyyətli infrastrukturu dəyişdirilir, tarixi abidələr bərpa olunur, yararsız vəziyyətə düşən ərazilər yenidən qurulur. Bu baxımdan Şuşanın tarixi libasının qorunması şərti ilə müasir şəhərə çevrilməsi prosesinə başlanıb.

Daha sonra Şuşa sakinləri Cıdır düzü, Qala divarları, Gəncə qapısı, şəhərin simvolları olan və Ermənistan Silahlı Qüvvələrinin 1992-ci ildə Şuşanı işğal edərkən güllələbaran etdikləri Üzeyir Hacıbəyli, Xurşidbanu Natəvan və Bülbülün heykəllərini, Yuxarı və Aşağı Gövhər Ağa məscidlərini ziyarət ediblər.

Səfərin sonunda sakinlər öz evlərini də ziyarət etmək imkanı qazanıblar.

# ATƏT-dəki Daimi Nümayəndəliyimizin yeni rəhbəri etimadnaməsini Baş katibə təqdim edib




***Azərbaycanın ATƏT-dəki Daimi Nümayəndəliyinin yeni rəhbəri Rövşən Sadıqbəyli etimadnaməsini təşkilatın Baş katibi Helqa Şmidə təqdim edib.***

Bu barədə R. Sadıqbəyli "Twitter"də bildirib.

O qeyd edib ki, ATƏT-in Baş katibi ilə Azərbaycan və təşkilat arasında əməkdaşlıq müzakirə olunub.

"Münaqişədən sonrakı reabilitasiya və yenidənqurma prioritetlər arasındadır", - deyə diplomat vurğulayıb.

Baş redaktor:
Zaur Əhməd

"Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2500

# Peyvənd olunanların sayı açıqlanıb

***Azərbaycanda son sutkada koronavirus (COVID-19) əleyhinə 58282 vaksin vurulub.***

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Unikal"a verilən məlumata görə, bir gündə birinci mərhələ üzrə vaksinasiya olunanların sayı 47690, ikinci mərhələ üzrə vaksinasiya olunanların sayı 10592 nəfərdir.

Ölkədə vurulan vaksinlərin ümumi sayı 5991016, birinci mərhələ üzrə vaksinasiya olunanların ümumi sayı 3574157, ikinci mərhələ üzrə vaksinasiya olunanların sayı isə 2416859 təşkil edir.

# Azərbaycanda son sutkada 3 614 nəfər COVID-19-a yoluxub, 23 nəfər ölüb

***Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 3 614 yeni yoluxma faktı qeydə alınıb, 1 114 nəfər müalicə olunaraq sağalıb.***

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Unikal"a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 23 nəfər vəfat edib.

Bu il narkotik vasitələrin qa-




çaqmalçılıq yolu ilə ölkəyə gətirilməsi ilə bağlı aşkarlanan faktların sayı açıqlanıb

İndiyədək ölkədə ümumilikdə 380 918 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 342 256 nəfər müalicə olunaraq sağalıb, 5 231 nəfər vəfat edib, aktiv xəstə sayı 33431 nəfərdir.

Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 15 786, ötən müddət ərzində isə ümumilikdə 4 268 668 test aparılıb.

# Mariya Zaxarova: "Əfqanıstanda dialoq bizim üçün aktualdır"

***Rusiya XİN-in mətbuat katibi Mariya Zaxarova mətbuat konfransı keçirib.***

"Report" "RİA Novosti"yə istinadən xəbər verir ki, sözçü Əfqanıstandakı son vəziyyət barədə danışıb.

"Taliban" qruplaşması ilə digər siyasi qüvvələrin, eks-prezident Həmid Karzayın dialoquna toxunan M.Zaxarova bunun müxtəlif aspektlərdən Rusiya üçün aktual olduğunu vurğulayıb: "Ölkənin gələcək dövlət quruluşu, vətəndaşların maraqları, qadın hüquqları və bir çox digər aspektdən bu mövzu Rusiya üçün aktualdır".



# Baş Prokurorluq Səhiyyə Nazirliyinə müraciət edib

***Tanınmış telejurnalist Günel Gözəlovanın cərrah-uroloq Araz Bayramovla bağlı şikayəti əsasında prokurorluqda araşdırma davam etdirilir.***

Baş Prokurorluğun Mətbuat xidmətindən "Unikal"ın sorğusuna cavab olaraq bildirilib ki, vətəndaş Günel Gözəlovanın ərinin həkim səhvi nəticəsində səhhətində fəsadların yaranması ilə bağlı müraciəti əsasında hazırda Nərimanov rayon prokurorluğunda araşdırma aparılır.




Araşdırma zamanı izahatlar alınıb, həkim səhvinin olub-olmamasını müəyyən etmək məqsədi ilə komisyon məhkəmə-tibbi ekspertizası təyin edilib.

Bundan başqa, həkim tərəfindən aparılan müalicə və reanimasion tədbirlər zamanı hər hansı qanun və tibbi protokolların tələblərinin pozulması hallarına yol verilib-verilməməsinin araşdırılması məqsədi ilə xidməti yoxlama aparılması üçün Azərbaycan Respublikası Səhiyyə Nazirliyinə Baş Prokurorluq tərəfindən müraciət edilib.

Hazırda araşdırma davam etdirilir.

# Rusiya və Macarıstan XİN başçıları Qarabağdakı vəziyyəti müzakirə edəcək

***Rusiyanın xarici işlər naziri Sergey Lavrov avqustun 24-də Macarıstana səfər edəcək.***

APA-nın Moskva müxbirinin xəbərinə görə, bu barədə Rusiya Xarici İşlər Nazirliyinin (XİN) rəsmi nümayəndəsi Mariya Zaxarova bu gün keçirdiyi brifinqdə bildirib.

O, S. Lavrovun macarıstanlı həmkarı ilə görüşəcəyini qeyd edib.

M. Zaxarovanın sözlərinə görə, görüşdə ikitərəfli əlaqələr, eləcə də beynəlxalq gündəmdə olan məsələlər, o cümlədən Ukrayna və Qarabağdakı vəziyyət müzakirə ediləcək.



# Rusiya XİN: "Üçtərəfli bəyanatın icrası prioritet təşkil edir"

***Rusiya XİN sözçüsü Mariya Zaxarova mətbuat konfransı keçirib.***

"Unikal" TASS-a istinadən xəbər verir ki, o, Qarabağla bağlı 10 noyabr üçtərəfli bəyanatını prioritet adlandırıb.

"Cənubi Qafqazdakı situasiya Rusiyanın diqqətindədir. Üçtərəfli bəyanatın icrası prioritet təşkil edir. Rusiya Azərbaycan və Ermənistanın münasibətlərinin kompleks şəkildə normallaşmasının tərəfdarıdır", - sözçü bəyan edib.

# İlham Əliyev Koreya Milli Assambleyasının sədrini qəbul edib



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 19-da Koreya Respublikası Milli Assambleyasının sədri Park Byonq-Soqun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.***

"Unikal" xəbər verir ki, nümayəndə heyətini salamlayan Prezident İlham Əliyev deyib:

-Mən sizi salamlayıram, xoş gəlmisiniz Azərbaycana. Əminəm ki, sizin səfəriniz çox uğurlu olacaq. Şadam ki, siz böyük heyətlə Azərbaycana gəlmisiniz və əminəm ki, Bakıda keçirəcəyiniz görüşlər Koreya-Azərbaycan əlaqələrinin inkişafına xidmət edəcək.

Bizim ölkələrimizi dostluq əlaqələri birləşdirir və müstəqillik dövründə Koreya-Azərbaycan əlaqələri daim uğurla inkişaf etmişdir. Yüksəksəviyyəli qarşılıqlı rəsmi səfərlər həyata keçirilmişdir və siyasi əlaqələrimizin inkişafı üçün çox önəmli addımlar atılmışdır.

Eyni zamanda, Koreya şirkətləri Azərbaycanda müxtəlif sahələrdə iştirak edirlər, müxtəlif layihələri həyata keçirirlər. Əlbəttə, əminəm ki, gələcəkdə iqtisadi-ticari əlaqələrimizin həcmi daha da artacaq. Biz Koreya şirkətlərini azad edilmiş torpaqlarda icra olunacaq layihələrə dəvət etmişik. Mən artıq dəfələrlə demişdim ki, bu layihələrdə Azərbaycan üçün dost olan ölkələrin şirkətləri iştirak edəcəklər. Görüləcək işlərin həcmi çox böyükdür. Biz 10 min kvadratkilometr ərazisi olan yerləri yenidən qurmalıyıq.

Əlbəttə ki, parlamentlərarası əlaqələrimizin inkişafı üçün yaxşı imkanlar var və siz bu gün Azərbaycan Milli Məclisində görüşlər keçirəcəksiniz. Əminəm ki, görüşlərin nəticələri çox müsbət olacaq və nəticə etibarilə əlaqələrimizin inkişafı istiqamətində növbəti uğurlu addım atılacaqdır. Bir daha xoş gəlmisiniz.

Koreya Respublikası Milli Assambleyasının sədri Park Byonq-Soq deyib:

-Cənab Prezident İlham Əliyev, çox sağ olun ki, dəyərli vaxtınızdan ayırdınız və bizi qəbul etdiniz. İlk növbədə, Koreya Respublikasının Prezidenti cənab Mun Ce-inin salamlarını Sizə çatdırmaq istəyirəm. Cənab Əliyev, mən çox yüksək qiymətləndirirəm ki, Sizin prezidentlik fəaliyyətiniz dövründə Azərbaycanda həm siyasi sabitlik hökm sürmüşdür, həm də Azərbaycan iqtisadi cəhətdən inkişaf etmişdir. Mən çox şadam ki, Sizi belə bir mühüm ildə ziyarət etdim. Çünki bu il sizin müstəqilliyinizin 30 ili tamam olur. Həmçinin növbəti il Azərbaycan ilə Koreya arasında diplomatik münasibətlərin qurulmasının 30 ili tamam olur. Mən səkkiz il əvvəl Azərbaycana Milli Assambleyanın sədr müavini vəzifəsində gəlmişdim və Sizinlə görüşmüşdüm. Bu səkkiz il ərzində Bakı çox dəyişib, inkişaf edib. Canlı şahidiyəm ki, Bakını tanımaq olmur. Bakı çox inkişaf edib. Bizim əlaqələrimizin potensialı hazırkı inkişaf səviyyəsindən daha artıqdır.

# AQTA 12 müəssisədə nöqsan aşkarladı

***Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi (AQTA) pandemiya dövrünün tələblərinə, bu sahədə müvafiq qanunvericiliyin icrasına, həmçinin yeni növ koronavirusun (COVID-19) profilaktikasına dair Nazirlər Kabinetinin Qərarı ilə təsdiq edilmiş metodiki göstərişlərin icrasına nəzarət məqsədilə ictimai iaşə obyektlərində reydləri davam etdirir.***

AQTA-dan "Unikal"a verilən məlumata görə, nəzarət tədbirləri çərçivəsində 2021-ci il avqustun 18-də ölkə üzrə 401 ictimai iaşə obyektində 675 monitorinq keçirilib. Monitorinqlər zamanı 12 müəssisədə qanunvericiliyin tələblərinin kobud şəkildə pozulması faktları aşkar olunub. Aşkar edilmiş nöqsanlarla bağlı İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq müvafiq tədbirlər görülüb.

Pozuntular aşkar edilmiş ictimai iaşə müəssisələri aşağıdakılardır:

1. Bakı şəhəri, Yasamal rayonu, Hüseyn Cavid pr., ev 566 ünvanında yerləşən, fiziki şəxs Baxışov Cəmaləddin Baxış oğluna məxsus "Chaikhor" çay evi;

2. Bakı şəhəri, Nizami rayonu, Şərifli küç., ev 25 ünvanında yerləşən, fiziki şəxs Sadıqova Mətanət Rəşid qızına məxsus kafe;

3. Bakı şəhəri, Nəsimi rayonu, Ü. Hacıbəyov küç., ev 37/43 ünvanında yerləşən, fiziki şəxs Əkbərova İlhamə İsmayıl qızına məxsus "İdeal" kafesi;

4. Bakı şəhəri, Nəsimi rayonu, Ü. Hacıbəyov küç., ev 10, məh. 37/43 ünvanında yerləşən, fiziki şəxs Faruk Cemil Ozmen oğluna məxsus kafe;

5. Bakı şəhəri, Səbail rayonu, Ə. Nəzərov küç., ev 3 ünvanında yerləşən, fiziki şəxs Hüseynov Elvin Kərim oğluna məxsus kafe;

6. Bakı şəhəri, Nizami rayonu, S. Mirzeyev və Çobanzadə küçələrinin kəsişməsində yerləşən, fiziki şəxs Abdullayev Zaur Alikoviç oğluna məxsus "Nanə" restoranı;

7. Bakı şəhəri, Nizami rayonu, Hacıyev küç., ev 4 ünvanında yerləşən, fiziki şəxs Quliyev Arif Kənan oğluna məxsus kafe;

8. Bakı şəhəri, Yasamal rayonu, Şərifzadə küçəsi 124 ünvanında yerləşən, fiziki şəxs Abbasov Cavid Dilqəm oğluna məxsus "Kabab evi" kafesi;

9. Bakı şəhəri, Yasamal rayonu, Şərifzadə küç., ev 130 ünvanında yerləşən, fiziki şəxs Nəbiyev Arif Əli oğluna məxsus "Daş Fırın" restoranı;

10. Bakı şəhəri, Nəsimi rayonu, Şəmsi Bədəlbəyli küç., ev 106 ünvanında yerləşən, fiziki şəxs Kadrı Yıldıza məxsus kafe;

11. Bakı şəhəri, Xətai rayonu, S. Vəzirov küç., ev 22 ünvanında yerləşən, fiziki şəxs Əkbərov Nicat Nazir oğluna məxsus "Adana Lahmacun" restoranı;

12. Abşeron rayonu, Saray qəsəbəsində yerləşən, fiziki şəxs Əliyev Şahin Məmmədrza oğluna məxsus "Murad" kafesi.

Qeyd edək ki, AQTA tərəfindən Bakıda, eləcə də regionlarda fəaliyyət göstərən ictimai iaşə obyektlərində monitorinqlərin miqyası genişləndirilib. Hazırda AQTA müfəttişləri tərəfindən respublika üzrə monitorinqlər davam etdirilir və qaydalara əməl etməyən sahibkarlıq subyektləri barədə ən sərt tədbirlər görüləcəkdir.

## "Azərbaycan və Türkiyə əsgərləri bizi xilas etdi" - Əfqanıstanda mühasirədə qalan tibb bacısı

***"Taliban" ölkənin əksər hissəsini ələ keçirdikdən sonra Əfqanıstanda qalan 20 yaşlı türkiyəli tibb bacısı İrem Kahraman vətəninə qayıda bilib.***

Unikal.org-un məlumatına görə, Pakistanda uçan təyyarə ilə İstanbula gələn İrem qorxu dolu anlar yaşadığını dilə gətirib.

Tibb bacısı Kabil hava limanına çatana qədər böyük bir xaosun içində olduqlarını və Taliban üzvlərinin onları qamçılarla qorxutduqlarını qeyd edib.

"Cənub qapısının qarşısında ABŞ əsgərləri və Taliban təhlükəsiz bölgəni qoruyurdu. Oraya çatana qədər bütün əşyalarımızı atdıq. İngilis əsgərinin yanına getməyə çalışdıq. "Biz Türkük" deyə bağırdığımız zaman, Taliban bizi qamçılarla qorxudurdu. Ora çatana qədər çətin anlar yaşadıq. Təhlükəsiz bölgəyə keçdiyimiz nöqtədən Azərbaycan və Türkiyə əsgərləri gəlib bizi apardılar. Oradakı səfirliyimiz də bizi qəbul etdi və bura gəlməyimizə hamı kömək etdi. Hamısına çox təşəkkür edirəm".

***Gülayə Mecid***

## "Hamilələr mütləq vaksin vurdurmalıdır" - AÇIQLAMA

***"Dünyada çox nadir bilinən xəstəliklər var ki, bununla mübarizədə vaksin vurdurmamaq düşünülə bilər".***

Unikal.org xəbər verir ki, bunu Milli Məclisin deputatı Rəşad Mahmudov deyib. O, hamilələrin və uşaq sahibi olmaq istəyənlərin mütləq peyvənd vurdurmalı olduğunu deyib və bunu ABŞ səhiyyə Nazirliyinin belə tövsiyə etdiyini bildirib:

"ABŞ-ın Səhiyyə Nazirliyi 3 gün öncə tövsiyə edib ki, mütləq və mütləq bütün hamilələr və hamiləlik planlaşdıran insanlar peyvənd olunsunlar. ABŞ-da bu məsuliyyəti üzərinə götürən təşkilat səhv olduğu təqdirdə, təzminatının nə olduğunu bilərək bunu deyir. Bu baxımdan peyvəndə əks-göstərişlər haqqında səhiyyə qurumlarında və eləcə də səhiyyə işçilərinin istifadə etdiyi yanaşmada daha elmi əsaslara dayanan addımlar atılmasını tövsiyə edirəm".

## "MSK çox ciddi bir orqandır" - Məzahir Pənahov

***"MSK çox ciddi bir orqandır. Biz seçkilərin keçirilməsinin məsuliyyətinin nə qədər yüksək olduğunu bilirik".***

Unikal.org xəbər verir ki, bunu Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov MSK-nın bu gün keçirilən iclasında deyib.

Onun sözlərinə görə, MSK heç bir orqandan asılı olmayan bir qurumdur.

## "Şimal Axını 2" layihəsi Avropaya təbii qazı bu vaxtda çatdıracaq

***"Şimal Axını 2" üzərindən Avropaya təbii qaz tədarükü 2021-ci ilin oktyabrında başlaya bilər.***

Unikal.org "TASS"a istinadən xəbər verir ki, bu barədə mütəxəssislər açıqlama verib.

Bildirilib ki, ötürmə həcmi həm qaz xətlərinin işə salınması şərtlərindən, həm də qaz bazarındakı vəziyyətdən asılı olacaq.

Qazprom əvvəllər bildirmişdi ki, bu il "Şimal Axını 2" üzərindən 5,6 milyard kubmetr təbii qaz verilə bilər.

***Ağarza Elçinoğlu***



## Qarabağa qayıdış bu kəndlərdən başlayacaq

***Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin təşəbbüsü ilə keçirilən "Qədim Qarabağın yenilənən siması" memarlıq müsabiqəsinə yekun vurulub. Qarabağın qəsəbə və kəndlərini əhatə edən müsabiqənin qalibləri elan edilib.***

Dövlət Şəhərsalma və Arxitektura Komitəsindən "Unikal"a verilən məlumata görə, işğaldan azad edilmiş ərazilərdə bərpa-quruculuq işlərinin sistemli şəkildə aparılması, ölkə memarlarının və şəhərsalma mütəxəssislərinin Qarabağda yenidənqurma proseslərində iştirakının təmin edilməsi məqsədilə Dövlət Şəhərsalma və Arxitektura Komitəsi tərəfindən keçirilən "Qədim Qarabağın yenilənən siması" adlı müsabiqəyə yekun vurulub. Hazırki mərhələdə 5 kəndi (Sarıcalı, Şəlvə, Horadiz, Böyük Mərcanlı, Zar) və 1 qəsəbəni (Xudafərin) əhatə edən müsabiqənin hədəfi eyni zamanda gənc memar və layihəçilər arasında istedadların müəyyən edilməsi və onların yanaşmalarının öyrənilməsi, eləcə də təqdim olunan layihələrdə qeyri-standart konsepsiyaların axtarışı idi. Münsiflər heyətinin Komitədə keçirilən iclasında müsabiqənin şərtlərinə cavab verən 21 layihədən ən yaxşıları müəyyən edilib.

Belə ki, münsiflər heyətinin qərarına əsasən təqdim olunan layihələrdən Ağdam rayonunun Sarıcalı, Laçın rayonunun Şəlvə kəndləri üzrə 1-ci, 2-ci və 3-cü yerlər üzrə qaliblər seçilib. Füzuli rayonunun Horadiz, Cəbrayıl rayonunun Böyük Mərcanlı kəndi və Xudafərin qəsəbəsi üzrə 1 layihə 2-ci yerə, 2 layihə isə 3-cü yerə layiq görülüb. Kəlbəcər rayonunun Zar kəndi üzrə isə yalnız 1 layihə 2-ci yerə layiq olub. Xatırladaq ki, 1-ci yerin sahibinə 5000 manat, 2-ci yerin sahibinə 3000 manat, 3-cü yerin sahibinə isə 2000 manat pul mükafatı, digər iştirakçılara isə diplomlar təqdim ediləcək. Layihələr yaşayış məntəqələrinin mövcud vəziyyətinin analizi, tarixi kontekstlə əlaqələri, orijinallıq, simvolizm, bütövlük, həmçinin uğurlu və peşəkar bədii-qrafik və memarlıq həlləri, vizual təqdimatlar üzrə qiymətləndirilib.

Qeyd edək ki, müsabiqədə əsasən gənc mütəxəssislər iştirak edib və bir sıra maraqlı layihə həlləri irəli sürülüb. Qalib layihələrdə dayanıqlı həyat şəraitinin yaradılmasına, müasir memarlıq həllərinin milli memarlıqla sintezinə, yaşayış məntəqələrinin gələcək texnoloji inkişafının həlledici istiqamətlərinə dair təkliflər əks olunub. Müsabiqədə qalib gələn layihələr kəndlərdə aparılacaq bərpa-quruculuq işlərində nəzərə alınacaq.

Seçilmiş layihələr və onların müəllifləri haqqında daha ətraflı məlumatla www.bizimqarabagh.az saytından tanış olmaq mümkündür.

***Zaurə***

# "Müharibədə Ermənistanla birgə Rusiya da məğlub olub"

## Akif Nağı: "Biz bilirdik ki, 10 noyabr razılaşmasına imza atanda, Rusiya da, Ermənistan da ona əməl etmək fikrində deyildilər"

***Qarabağ Azadlıq Təşkilatının sədri Akif Nağı "Unikal" qəzetinə müsahibə verib. A.Nağı son dövrlər Ermənistan tərəfinin törətdiyi təxribatlar, Rusiya sülhməramlılarının mövqesizliyi və digər məsələlər barədə fikirlərini bölüşüb.***

***-Akif bəy, Ermənistan tərəfi 44 günlük müharibədən sonra razılaşmaya əməl etməyərək təxribatlarını davam etdirir. Sizcə, bu təxribatlar nəyin nəticəsidir?***

-Son dövrlər baş verən hadisələrə nəzər yetirəndə ilk baxışdan mürəkkəb görünür. Amma ortada sadə bir məsələ var ki, qarşı tərəf məğlubiyyətin nəticəsindən sonra bu cür addımlar atır. Bu müharibədə Ermənistanla birgə Rusiya da məğlub olub. Bəziləri iddia edir ki, guya planı Rusiya cızıb, imkan verib ki, Azərbaycan məsələni həll eləsin. Bunların hamısı boş söhbətlərdir. Azərbaycan Türkiyə ilə birgə bu planı cızdı və Rusiya da fakt qarşısında qaldı. Ermənistanın məğlub olması da Rusiyanın məğlub olması deməkdir. Ermənistan rus silahı ilə müharibə aparırdı və uduzdu, bu da Rusiya silahının məğlubiyyəti idi. Diqqət edirsizsə, Rusiya Azərbaycandakı hərbi qənimətlər parkını həzm edə bilmir. Çünki orada olan silah-sursatın, texnikanın əksəriyyəti Rusiya istehsalıdır. Onlar məğlub durumda olduqlarına görə vəziyyətdən çıxmaq yollarını axtarırlar.



Onlar üçün bir kompromis variant ortaya gəldi. Azərbaycanın ərazisinin bir hissəsi müvəqqəti olaraq Rusiyanın nəzarəti altında qaldı. İndi həmin ərazilərdən Azərbaycana qarşı təxribat törətməyə çalışırlar. Rusiyanın çoxdankı arzusu idi ki, öz silahlı qüvvələrini Azərbaycana leqal şəkildə yeritsin. 10 noyabr razılaşması ilə sülhməramlı adıyla öz kontingentini yerləşdirdi.

***-Amma məsələ odur ki, istər Ermənistan, istərsə də Rusiya razılaşmanı pozaraq öz üzərlərinə düşən öhdəliyi yerinə yetirmirlər...***

-Biz bilirdik ki, Rusiya da, Ermənistan da 10 noyabr razılaşmasına imza atanda, ona əməl etmək fikrində deyildilər. Sadəcə olaraq, vəziyyətdən çıxış yolu kimi o sənədi imzaladılar. İndi də özlərinə sərf edən şəraiti yaratmaq uğrunda mübarizə aparırlar.

***-O zaman Azərbaycanın qazancı nədir?***

-Azərbaycan 2020-ci ilin 27 sentyabrına qədər olan dövrdən çox-çox irəlidədir. Ərazilərimizin böyük əksəriyyəti işğaldan azad olunub. Bu ciddi bir uğurdur. Hazırda mübahisə gedir, Azərbaycan da öz planlarını səbrlə həyata keçirməyə çalışır. Azərbaycan bu və ya digər yollarla Ermənistanı və Rusiyanı razılaşmanın şərtlərinə əməl etməyə məcbur edir. Ancaq onlar hələ ki, müxtəlif yollarla yayınmağa çalışırlar. Biz Türkiyə və digər müttəfiqlərimizdən istifadə edərək addım-addım öz mövqeyimizi gücləndiririk.

***-Son günlər baş verən təxribatlar zamanı Türkiyə-Rusiya monitorinq mərkəzinin hər hansı reaksiya verməməsi də cəmiyyətdə birmənalı qarşılanmadı...***

-Bildiyiniz kimi, bu monitorinq mərkəzi ikitərəflidir. Hər hansı bir bəyanat veriləcəksə, gərək iki tərəf də razılaşsın. Rusiyanın bu məsələdəki mövqeyi hər kəsə bəllidir. Amma Türkiyə bütün məqamlarda Azərbaycanın yanında olduğunu bəyan edib. Son hadisələrə gəlincə, görünür ki, Türkiyə də hansısa məqamları gözləyir, müəyyən məqama qədər hələ səbr göstərir. Hər kəs bilir ki, Türkiyə heç bir prosesdə öz mövqeyindən geri çəkilməyib. Regiondakı bütün ölkələr də Türkiyəni ciddi güc mərkəzi kimi qəbul edir. Bunu ona görə deyirəm ki, Türkiyə Qarabağ məsələsində də mövqeyindən geri çəkilməyəcək və hər zaman Azərbaycanın haqlı mövqeyini dəstəkləyəcək.

Elə məsələlər var ki, ona görə müəyyən dərəcədə təmkinli olmağa çalışırlar. Vacib məsələlərdən biri də Zəngəzur dəhlizinin açılmasıdır. O məsələ hansısa formada həllini tapandan sonra Azərbaycan üçün də, Türkiyə üçün də yeni situasiya yaranacaq. Hesab edirəm ki, hazırda narahat qaldığımız məsələlər də Zəngəzur dəhlizi işə düşəndən sonar mərhələli şəkildə həll olunacaq.

***-Sizcə, Qarabağda üzərinə düşən öhdəliyi yerinə yetirməyən Rusiya ilə Ermənistan Zəngəzur məsələsində nəyə görə geri çəkiləcəklər?***

-Ermənistanın bu məsələdə razılaşması Rusiyadan asılıdır. Rusiyanın da marağındadır ki, Zəngəzur dəhlizi işləsin. O zaman Türkiyə ilə həm iqtisadi, həm də siyasi münasibətlər bir az da yuxarı qalxacaq. Əslində, Rusiya Azərbaycanı Ermənistanla qarşı-qarşıya qoymaqla öz oyununu oynayır. Amma bizim narazılığımız var ki, 10 noyabr razılaşması bizim istədiyimiz səviyyədə yerinə yetirilmir. Yenə deyirəm, biz unutmamalıyıq ki, 10 noyabr razılaşması ilə Azərbaycanın işğal altında olan xeyli ərazisi azad olunub. Heç bir silah tətbiq etmədən 3 böyük rayonun boşaldılması sadə məsələ deyil. Ona görə də 10 noyabr razılaşması barədə narazılıqla danışanda bu məqamları nəzərə almaq lazımdır. Bəli, o biri ərazilərdə ermənilər yenidən toparlanmaq istəyir, ruslar onlara yardımçı olurlar. Amma onlar da boş söhbətdir. Ora silah-sursat göndərməklə ordu yaranmır. Ordu formalaşdırmaq üçün milyardlar lazımdır. İndiki məqamda Rusiyanın o qədər imkanı yoxdur, özünün vəziyyəti ağırdır. İndi Ermənistana Qərb müəyyən mənada dəstək verməyə çalışır. Amerika, Qərb maliyyə ilə ortaya girib. Rusiya da hərbi gücələ ortadadır. Bunların arasında hansı tərəf üstünlük qazanacaq, Ermənistanın xətti nədən ibarət olacaq, o da qeyri müəyyəndir. Ona görə də prosesləri diqqətlə izləyib doğru addım atmaq lazımdır. Təsadüfi deyil ki, Azərbaycan Prezidenti son müsahibəsində Rusiya ilə, regionda baş verənlərlə bağlı mövqeyini ortaya qoydu. Bundan əvvəl də Müdafiə Nazirliyinin dilindən Rusiya ilə bağlı narazılıq ifadə olundu. Deməli, proseslər nəzarətdədir və Azərbaycan Rusiyanın mövqeyinə təsir eləmək üçün məqamında müəyyən addımlar atmalıdır.

***-Prezident həmin müsahibəsində "Rusiya Azərbaycanın qonşusudur. Ermənistanın müttəfiqidir" deməklə də ciddi bir mesaj vermiş oldu...***

-Bəli. İlk dəfə idi ki, mən gördüm ki, Azərbaycan Prezidenti məsələni bu qədər açıq şəkildə ortaya qoydu. Çünki artıq elə bir vəziyyətdir ki, bunu demək lazımdır. Rusiya Azərbaycan tərəfi ilə görüşdə deyir ki, Azərbaycan bizim strateji müttəfiqimizdir, Ermənistanla görüşdə də eyni mövqeyi ifadə edir. Təbii ki, bütün bunlar siyasi oyunlardır. Prezident çox dəqiq ifadə etdi ki, biz Rusiya ilə qonşuyuq və qonşuluq münasibətlərini gözləyirik. Rusiya artıq bu bəyanatın altından çıxa bilməz, çünki reallıq bundan ibarətdir. Prezident həm də ona işarə verdi ki, siz Ermənistanla müttəfiqsiniz, biz də Türkiyə ilə müttəfiqik. Hər halda, Azərbaycan qalib tərəfdir və ümid edirəm ki, ortada olan problemlər də qısa zamanda öz həllini tapacaq.

***Z.Məmmədli***

# Allahşükür Paşazadənin qudası ilə bağlı böyük müəmma...

## 100 min manatlıq vergi borcuna görə məhkəməyə verilən şirkət kimindir?

***İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti Bakı şəhəri Kiçik Sahibkarlıqla İş üzrə Baş İdarəsi "Elite International Management" MMC-ni məhkəməyə verib.***

Yerli mətbuatın bildirdiyinə görə, xəbər verir ki, məhkəmə çəkişməsinin səbəbi öhdəliklər üzrə yaranmış mübahisələrdir. İddia Bakı Kommersiya Məhkəməsinin hakimi Zaur Pirverdiyevin icraatındadır.

"Elite İnternational Management" MMC 25 iyul 2002-ci ildə qeydiyyata alınıb. Şirkətin qanuni təmsilçisi Evsen Ali Diyardır.

Ali Evsen Qafqaz Müsəlmanları İdarəsinin sədri Allahşükür Paşazadənin qudasıdır. "Elite International Management" MMC isə "Evsen Group" şirkətinə daxildir.

Yerli mətbuat ona da diqqət çəkib ki, "Evsen Group" artıq Ali Evsenə məxsus deyil. Bir neçə il əvvəl yayılan məlumatlarda deyilirdi ki, İspaniya məhkəməsinin sanksiyası əsasında "Evsen Group" şirkətinin bank hesabları dondurulub. Lakin sonradan məhkəməyə şirkətin Ali Evsenə məxsus olmadığını sübut edən sənədlər təqdim edilib. İddialara görə, həmin sənədlərdən bəlli olub ki, "Evsen Group" şirkətini Fövqəladə Hallar naziri Kəmaləddin Heydərov alıb.

Mediada nazirə aid olduğu bildirilən şirkətlərin siyahısında "Elite İnternational Management" MMC-nin də yer aldığına diqqət çəkən KİV-lər bu məlumatın indiyə qədər təkzib olunmadığını vurğulamağı unutmayıblar.

Qeyd edək ki, "Elite İnternational Management" MMC-nin hazırda 98



482.99 AZN vergi borcu olduğu deyilir.

"Unikal"ın araşdırması zamanı isə "Evsen Group"un hələ də rəsmən Şeyxin qudasına aid olduğu görünür. Belə ki, şirkətlər qrupunun rəsmi internet səhifəsində - evsengroup.az-da ayrıca "Ali Evsen" bölümü var və orada sözügedən iş adamı "Şirkət prezidenti" kimi təqdim edilir. Üstəlik, həmin bölmədə A.Evsenin adından bəzi fikirlər də yerləşdirilib.

"İş adamının cəmiyyət qarşısında məsuliyyəti yalnız vergilərin vaxtında və düzgün ödəməklə bitmir. Vergi ödəmək dövlət qarşısında vəzifələrin yerinə yetirilməsi deməkdir. Cəmiyyət qarşısında vəzifələr, bir vətəndaş kimi vəzifələr həm də cəmiyyətə faydalı xidmətlər göstərməklə yerinə yetirilir" - bu sətirlər məhz A.Evsenə aid həmin fikirlərdən çıxarışdır.

O da maraqlıdır ki, vergi borcuna görə məhkəməyə verildiyi deyilən "Elite İnternational Management" MMC-nin adına "Evsen Group"un rəsmi saytındakı "Şirkətlərimiz" bölümündə rast gəlinmir.

Rəsmi saytın "Son xəbərlər" bölümündə ən son məlumatın isə 2018-ci il noyabrın 5-də yerləşdirilməsi diqqət çəkir. Son 3 ildə veb-səhifənin xəbərlərində yenilənmə olmaması maraq doğurmaya bilməz.

Saytda eyni zamanda bildirilir ki, Türkiyənin Adana şəhərində doğulan və Bakı Dövlət Universitetinin Hüquq fakültəsini bitirən Ali Evsen 1990-cı ildə Azərbaycanda ilk xarici özəl sərmayə qoyan türk şirkətini qurub. " Bu son dərəcə inamlı və kifayət qədər cəsarətli addım idi. Azərbaycanda birinci sərbəst ticarət mağazasının açılışı da onun adı ilə bağlıdır. Ticarət fəaliyyəti dövründə Azərbaycana Dubaydan ilk konteyneri gətirməklə cənab Evsen bu ticarət yolunu açmış oldu" deyə məlumatda əlavə olunur.

Xatırladaq ki, Azərbaycanda biznes qurmağa 28 yaşında başlayan A.Evsen hazırda 59 yaşındadır.

Beləliklə, "Evsen Group"un rəsmi saytına inansaq, bu şirkətlər qrupu hələ də onun yaradıcısının idarəçiliyindədir.

Odur ki bəzi KİV-lərin bu qrupu K.Heydərovla əlaqələndirməsinin nə qədər doğru olub-olmadığı barədə mübahisələrə yalnız tərəflərdən biri tam və qəti aydınlıq gətirə bilər...

*Sənan Mirzə*

# Vasif Talıbov ön xətdə əsgərlərə baş çəkib

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Təkəqaya və Soyuq bölgələrində olub, ön xətdə xidmətin təşkili və şəxsi heyətin məişət şəraiti ilə maraqlanıb.***

Ali Məclisin Sədri əsgərləri salamlayıb, çətin dağlıq şəraitdə xidməti vəzifələrini uğurla yerinə yetirdiklərinə görə onlara təşəkkürünü bildirərək deyib: Ölkəmizin sərhədlərinin qorunması ordumuzun qarşısında duran əsas vəzifədir. Buranın da strateji ərazi olduğu nəzərə alınaraq 2014-cü ildə postların yaradılması və xidmətin təşkili barədə qərar verildi. Artıq 7 ilə yaxındır ki, Azərbaycan əsgəri çətin dağlıq şəraitdə fasiləsiz xidmət aparır, qarşıya qoyulan vəzifələri uğurla yerinə yetirir.

Ali Məclisin Sədri deyib: 3700 metr yüksəklikdə xidmət aparmaq cəsarət və dözümlülük, bu cür strateji yüksəkliyin əldə saxlanması isə böyük qəhrəmanlıq tələb edir. Siz bunları yerinə yetirdiniz və göstərdiniz ki, Azərbaycan əsgəri qarşıya qoyulan tapşırıqları yerinə yetirməyə qadirdi.



Ali Məclisin Sədri nümunəvi xidmətlərinə görə şəxsi heyətə təşəkkür edərək deyib: Yüksəkliklərdə xidmətin yaxşı təşkil olunması qələbələrin təməlidir. Əvvəllər bu ərazidə əsgərlər çətin şəraitdə xidmət aparırdılar. Bu gün xidmətinizi layiqincə yerinə yetirməyiniz üçün hər cür şərait yaradılıb. Həm əvvəllər, həm də indi əsgər və zabitlər bu ərazidə xidməti vəzifələrini layiqincə yerinə yetiriblər. Əminik ki, sizdən sonra xidmət edənlər də bu ənənəni davam etdirərək muxtar respublikamızın, ümumilikdə, ölkəmizin strateji yüksəkliklərini layiqincə qoruyacaqlar.

Sonra şəxsi heyət birlik və bərabərliyin ifadəsi olan "Hamı bir nəfər, bir nəfər hamı üçün!" şüarını səsləndiriblər.

Ali Məclisin Sədri xidmətdə fərqlənən hərbi qulluqçuları qiymətli hədiyyələrlə mükafatlandırıb, digərlərinə təşəkkür elan edib, yaradılan şəraitlə maraqlanıb, komanda müşahidə məntəqəsində mövqelərimizin vəziyyəti, mövcud topoqrafik və taktiki şəraitlə tanış olub.

# DSK-nin tərkibi yenidən formalaşdırılır

***Azərbaycanda dairə seçki komissiyalarının (DSK) yenidən formalaşdırılması prosesinə başlanıb.***

Unikal.org-un məlumatına görə, Mərkəzi Seçki Komissiyasının bununla bağlı iclası keçirilir.

İclasın gündəliyinə MSK-nın 13 fevral, 15 fevral, 17 fevral, 18 fevral, 19 fevral, 20 fevral, 21 fevral, 22 fevral, 23 fevral, 24 fevral, 25 fevral 2020-ci il və 27 aprel 2021-ci il tarixli iclas protokollarının təsdiq edilməsi və Respublika üzrə dairə seçki komissiyalarının yenidən formalaşdırılması məsələləri daxildir.

Seçki Məcəlləsinə əsasən, iclasda Milli Məclisdəki çoxluğu, azlığı və heç bir partiyaya mənsub olmayan müstəqil deputatları MSK-da təmsil edən üzvlər dairə seçki komissiyalarının üzvlüyünə namizədləri təqdim edəcəklər.

Qeyd edək ki, Seçki Məcəlləsinə əsasən, hər DSK-nın 9 üzvü olur, onlardan 3-nün namizədliyi deputatları Milli Məclisdə (MM) çoxluq təşkil edən siyasi partiyanı (indiki halda YAP) MSK-da təmsil edən komissiya üzvləri tərəfindən, 3-nün namizədliyi deputatları MM-də azlıq təşkil edən siyasi partiyaları MSK-da təmsil edən komissiya üzvləri tərəfindən, 3 üzvün namizədliyi isə heç bir siyasi partiyaya mənsub olmayan MM deputatlarını MSK-da təmsil edən komissiya üzvləri tərəfindən təqdim olunur.

DSK-ların yenidən formalaşdırılması ilə bağlı qərar və qərara əlavə olunan dairə seçki komissiyaları üzvlərinin siyahısı rəsmi mətbuatda dərc olunacaq.

DSK-ların yeni tərkibi barədə məlumat MSK-nın internet səhifəsi vasitəsilə də ictimailəşdiriləcək.

# Gömrük Komitəsi: Külli miqdarda psixotrop maddə aşkar edildi

***Narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirləri çərçivəsində gömrükçülər daha bir uğurlu əməliyyat həyata keçiriblər.***

Unikal.org xəbər verir ki, Naxçıvan Muxtar Respublikası ərazisindən tranzit keçməklə Türkiyə Respublikasına gedən Türkiyə Respublikası vətəndaşının idarə etdiyi 34DZ1302/34EHJ815 dövlət nömrə nişanlı "DAF" markalı nəqliyyat vasitəsinə Şahtaxtı gömrük-sərhəd buraxılış məntəqəsində gömrük baxışı keçirilib.

Yoxlama zamanı nəqliyyat vasitəsinin yanacaq çənində, xüsusi olaraq hazırlanmış gizli saxlanc yerində 191 litrə qədər maye halında psixotrop maddə - metamfetamin aşkarlanıb.

Faktla bağlı Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin İstintaq bölməsi tərəfindən Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 206-cı maddəsi ilə (qaçaqmalçılıq) cinayət işi açılıb.

# DİN 4 nəfərin öldüyü qəza ilə bağlı məlumat yaydı

***Daxili İşlər Nazirliyi (DİN) ötən gün Goranboy rayonunda baş verən ağır yol-nəqliyyat hadisəsi ilə bağlı məlumat yayıb.***

DİN-in mətbuat xidmətindən Unikal.org-a bildirilib ki, avqustun 18-də saat 18 radələrində Goranboy rayonunun Goran qəsəbəsi ərazisində Yevlax rayon sakini E.Əsgərov idarə etdiyi "Ford Transit" markalı avtomobil aşıb.

Qəza nəticəsində avtomobildə olan sərnişinlərdən 4 nəfəri aldığı xəsarətlərdən hadisə yerində ölüb, bir sərnişin isə xəstəxanaya yerləşdirilib.

Faktla bağlı Baş İstintaq və Təhqiqat İdarəsi tərəfindən araşdırma aparılır.

# Həbs edilən sabiq icra başçısının məhkəməsinin vaxtı bilindi



***Yevlax şəhər İcra Hakimiyyətinin sabiq başçısı Qoca Səmədovun məhkəməsinin vaxtı məlum olub.***

Unikal.org-un məlumatına görə, sabiq icra başçısı Şəki Ağır Cinayətlər Məhkəməsində avqust ayının 25-i saat 15:00-da hakim qarşısına çıxarılacaq. Cinayət işi hakim Bilal Məmmədovun icraatındadır.

Qeyd edək ki, Q.Səmədov 2019-cu ildə Dövlət Təhlükəsizliyi Xidməti (DTX) tərəfindən həbs edilib.

*Seymur Əli*

# Vaksin olunan və olunmayan müəllimlərin sayı açıqlanıb

***İndiyədək ümumi təhsil müəssisələrində çalışan 220 mindən çox təhsil işçisindən 138 min nəfərə yaxını hər iki dozada vaksin olunub.***

"Unikal" xəbər verir ki, bu barədə Təhsil Nazirliyinin İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Cəsarət Valehov məlumat verib.

O bildirib ki, bu günədək ümumi təhsil müəssisələri işçilərindən təxminən 60 min nəfərdən çoxu vaksin olunmayıb:

"Onlardan immuniteti olanlar 16 500, bu və ya digər səbəbdən vaksin olunmayanlar isə 42 min nəfərdən çoxdur. Vaksin olunmaq həm də ənənəvi qaydada daha çox saatda dərs demək imkanıdır. İnanırıq ki, növbəti 20-25 gündə təhsil işçiləri arasında vaksinləşmə faizi daha da yüksələcək".

# "Azərpoçt"un baş direktoru Markis Vilkansla görüşüb

***Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin tabeliyində fəaliyyət göstərən "Azərpoçt" MMC-nin Baş direktoru Əfqan Cəlilovla Latviya Poçtunun rəhbəri Markis Vilkans arasında görüş keçirilib.***

"Unikal" xəbər verir ki, görüş zamanı "Azərpoçt" MMC-də həyata keçirilən yeni layihələr, poçt-maliyyə xidmətlərinin inkişaf etdirilməsi istiqamətində görülən işlər barədə ətraflı məlumat verilib.

Həmçinin Azərbaycanla Latviya arasında poçt sahəsində əməkdaşlıq imkanları müzakirə edilib. Markins Vilkans "Azərpoçt" MMC-də həyata keçirilən innovativ layihələrin böyük əhəmiyyət daşıdığını və qarşılıqlı təcrübə mübadiləsi aparmağa hazır olduqlarını bildirib.

Tərəflər poçt-maliyyə sahəsində əməkdaşlığı genişləndirməkdə, poçt sahəsində logistika xidmətlərinin inkişaf etdirilməsi və elektron ticarət layihələri çərçivəsində poçt mübadiləsinin artırılmasında maraqlı olduqlarını qeyd ediblər. Pandemiya dövründə də hər iki ölkə arasında poçt göndərişlərinin həyata keçirildiyi vurğulanıb.

"Azərpoçt" MMC və Latviya Poçtu rəhbərlərinin görüşündə qarşılıqlı maraq doğuran digər məsələlər də müzakirə edilib.

# Türkiyəyə aparılan narkotik Naxçıvanda ələ keçdi

***Naxçıvan gömrükçüləri tərəfindən narkotik qaçaqmalçılığı cəhdinin qarşısı alınıb.***

"Unikal" xəbər verir ki, bu barədə Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin mətbuat xidmətindən məlumat verilib.

Bildirilib ki, Naxçıvan Muxtar Respublikası ərazisindən tranzit keçməklə Türkiyə Respublikasına gedən Türkiyə Respublikası vətəndaşının idarə etdiyi 34DZ1302/34EHJ815 dövlət nömrə nişanlı "DAF" markalı nəqliyyat vasitəsinə Şahtaxtı gömrük sərhəd buraxılış məntəqəsində gömrük baxışı həyata keçirilən zaman əməkdaşların sayıqlığı nəticəsində nəqliyyat vasitəsinin yanacaq çənində xüsusi olaraq hazırlanmış və aşkarlanması çətinləşdirilmiş saxlanc yerində gizlədilmiş maye halında 191 litrə yaxın psixotrop maddə - metamfetamin aşkarlanıb.

Faktla bağlı Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin İstintaq bölməsi tərəfindən Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 206.2-ci maddəsi ilə (qaçaqmalçılıq yolu ilə narkotik vasitələrin gömrük nəzarətindən kənar və ya ondan gizli keçirilməsi) cinayət işi açılıb.

# Cavanşir Feyziyevin adı ətrafında 1 milyonluq tender qalmaqalı

## *Azərbaycanın dərman bazarında böyük payı olan deputatın oğlu Dövlət Agentliyinin dərman preparatları ilə bağlı müsabiqəsində necə qalib gəlib?*

***Yola salmaq üzrə olduğumuz həftənin ən çox müzakirə olunan mövzularından biri İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin böyük məbləğli tenderi, daha doğrusu, həmin tenderin nəticəsi ilə bağlı idi. 5 ildir fəaliyyətə başlayan bu qurumun işindən razılıq edən bir nəfər belə tapmaq çətin məsələdir.***

Əvəzində isə Agentliklə bağlı daim tənqidlərin səsləndirildiyinə şahid oluruq. Cəmiyyətdə geniş səs-küy yaradan tender isə adıçəkilən qurumun adını növbəti dəfə neqativ planda gündəmə gətirdi. Söhbət nədən gedir? Məsələ burasındadır ki, Agentlik Bakı ətrafında, Buzovna qəsəbəsində 1 illiyə ofis və anbar icarəyə götürüb. Müqavilənin dəyəri isə nə az, nə çox, 1 mln. 176 min manatdır. Bir sözlə, agentlik obyekti aylıq 98 min manata icarəyə götürüb, özü də Buzovnada!

Məsələnin maraqlı tərəfi odur ki, həmin obyektin sahibi gənc bir insandır - Orxan Feyziyev. Ola bilər ki, çox bacarıqlı, təhsilli gəncdir, ancaq bir məsələ var ki, həmin bu gənc deputat Cavanşir Feyziyevin oğludur. İqtisadçı ekspert Natiq Cəfərlinin sözü olmasın, bu da Azərbaycan fenomenidir - az qala, bütün məmur, deputat, nazir uşaqları doğuşdan bacarıqlı biznesmen olurlar, həmişə tenderlər udurlar. İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin keçirdiyi satınalma müsabiqəsində məhz millət vəkilinin qalib elan edilməsi də məhz bu kontekstdə ictimai müzakirə yaradıb. Və media, ekspertlər, eləcə də sadə vətəndaşlar haqlı olaraq sual edirlər:

1) Deputatın gənc oğlu bu yaşda necə uğurlu biznes qura bilib ki, dəyəri milyonlarla manat olan torpaq sahəsi və ofis sahibinə çevrilib?

2) Həmin biznes hansı sərmayə ilə qurulub? Axı bir insanın gənc yaşda və qısa vaxtda bu qədər sərvət əldə edə bilməsi üçün böyük məbləğdə "mayaya" ehtiyacı var. Elə isə deputat oğlu həmin sərmayəni haradan əldə edib?

3) Cavanşir Feyziyevin adı mətbuatda daim ölkənin dərman bazarının aparıcı fiquru kimi hallanır. İndi İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin keçirdiyi tenderdə məhz onun oğlunun qalib elan edilməsi bu mənada, doğrudanmı, təsadüfdür? Sualı bir az da sadələşdirək:

Azərbaycanın dərman bazarında əsas pay sahibi olan C.Feyziyevin oğlunun dərman preparatlarının qəbulu, saxlanılması, daşınması üçün ofis və anbar kirayələnməsi məqsədilə keçirilən tenderdə qalib elan edilməsi həmin tenderin ədalətliliyinə, obyektivliyinə şübhə salmırmı?

Ən maraqlısı isə odur ki, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi bu qalmaqallı məsələ ilə bağlı açıqlama yayıb, lakin mətni oxuduqda cəmiyyətdə yaranan sualların heç birinə cavab tapmaq mümkün deyil. Bir sözlə, ortada AÇIQLAMASIZ AÇIQLAMA var. Məsələn, qurum iddia edir ki, "komissiya tərəfindən tenderdə təkliflər sorğusunun formal tələblərini tam təmin edən və ehtimal olunan qiymətdən aşağı qiymət təklifi verən fiziki şəxs Orxan Cavanşir" olub. Sonra da əlavə olunur: "Məlumat üçün bildirək ki, 4,3 ha ərazidə yerləşən, ümumi sahəsi 12 min 553,3 kv. km olan ofis və anbar kompleksi dərman preparatlarının qəbulu, saxlanılması, daşınması üçün hər cür imkana malikdir".

Lap yaxşı! Lakin ictimai müzakirəyə səbəb olan məqamlar başqadır axı! İnsanlar sorğu-sual edirlər ki, niyə böyük məbləğli tenderlərin arxasından əksərən hansısa məmurun, deputatın ailə üzvü, başqa bir qohumu çıxır? Doğrudanmı, Azərbaycanda vəzifəli şəxslərin yaxınlarından başqa bacarıqlı, fərasətli, imkanlı kimsə yoxdur? Və ya necə olur ki, Azərbaycanda bir nəfər belə rəsmi milyonçu olmadığı halda, hansısa nazirin, deputatın, icra başçısının gənc övladı belə milyonluq obyektlərin sahibinə çevrilməyi bacarır? Bu işdə bir anormallıq, bir absurd yoxdurmu, xanımlar və cənablar?!



***P.S. Sözgəlişi bir xatırlatma edək. 2019-cu ildə mətbuat yazırdı ki, "Quska" ləqəbi ilə tanınan keçmiş deputat Hüseyn Abdullayevin cinayət işinin araşdırılması zamanı xeyli maraqlı məqamlar ortaya çıxıb. Belə ki, həmin vaxt "Avromed" dərman firmasının rəhbəri olan deputat Cavanşir Feyziyev bir neçə il əvvəl "Quska"dan dəyəri 10 milyonlarla ölçülən obyekt alıbmış. İstintaq zamanı müəyyən olunub ki, 2014-cü ildə Hüseyn Abdullayevin mərhum atasının adına olan və Üzeyir Hacıbəyov küçəsində yerləşən 786 kvadrat. metr qeyri-yaşayış sahəsini millət vəkili Cavanşir Feyziyev öz oğluna alıb. Tərəflər arasında alqı-satqı isə "Quska" həbs edilməzdən əvvəl - 2013-2014-cü illərdə həyata keçirilibmiş. Obyekt öncə üç ayrı şəxsin (onlardan birinin müğənni Gülyaz Məmmədova olduğu bildirilirdi) adına sənədləşdirilib, sonradan isə deputatın oğlu Orxanın adına keçirilib.***

***Əlavə sözə gərək duymur və şərh verməyi oxucuların ixtiyarına buraxırıq...***

*Sənan Mirzə*

# Orden-medallı məmurların min bir oyunu...

## Həftənin replikası: vəzifəli şəxslərin dövlət mükafatları ilə təltif edilməsi düzgündürmü?



***Bu yaxınlarda internet resurslarında maraqlı bir materialla qarşılaşdıq. Həmin materialdan belə aydın olurdu ki, son ilyarımda həyata keçirilən anti-korrupsiya əməliyyatları nəticəsində saxlanılan və barələrində həbs qətimkan tədbiri seçilən məmurların az qala hamısı müxtəlif vaxtlarda müxtəlif orden və medallarla təltif edilibələr. Üstəlik, söhbət dövlət orden və medallarından gedir.***

Məsələn, "öz kabinetindəcə saxlanan ilk icra başçısı" ünvanını daşıyan Ağstafa rayonunun sabiq rəhbəri Nizaməddin Quliyev 2014-cü ildə (yəni Goranboyun İcra Hakimiyyətinin başçısı kimi çalışarkən) "Azərbaycan Respublikasının ictimai-siyasi həyatında xidmətlərinə görə" "Şöhrət" ordeni ilə təltif edilibmiş. N.Quliyevlə eyni gündə saxlanılan və Yevlağın İcra Hakimiyyətinin başçısı olduğu zaman külli miqdarda vəsaiti - təxminən 1 milyon manatı mənimsəməkdə ittiham olunaraq həbs edilən Qoca Səmədov isə vəzifəsindən uzaqlaşdırılmamışdan aylar öncə 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif olunubmuş.

DTX-nın 2020-ci ildə keçirdiyi əməliyyatlar nəticəsində Neftçala Rayon İcra Hakimiyyətinin başçısı İsmayıl Vəliyevlə (20 fevral) İmişlinin icra başçısı Vilyam Hacıyev (5 may) həbs edildilər. Adları sadalananların sonuncusu - yəni V.Hacıyev 2017-ci ilin avqustunda prezident tərəfindən 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeninə, İ.Vəliyev isə həbsindən bir neçə ay əvvəl eyni ordenə layiq görülübmüş. Tutulanda isə həm İ.Vəliyev, həm də V.Hacıyev vəzifə səlahiyyətlərindən sui-istifadə etmə, külli miqdarda təkrar rüşvət alma və mənimsəmədə ittiham olunurdular. Nümunələr bununla da bitmir. Məsələn, 2020-ci ilin mayında DTX Mədəniyyət nazirinin müavini Rafiq Bayramov və Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi Zakir Sultanovu həbs etdi. Onların ikisi də vəzifə səlahiyyətlərindən sui-istifadədə, mənimsəmədə, saxtakarlıqda günahlandırılırdı. Halbuki R.Bayramov bundan xeyli əvvəl "Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə təltif olunmuşdu. 2021-ci il başlayan kimi, yəni yanvar ayının 9-da həbs olunan "Azərxalça" MMC-nin rəhbəri Vidadi Muradov isə vaxtilə "Şöhrət" ordeninə layiq görülmüşdü.

Belə örnəklərin sayını artırmaq olar. Lakin hacət görmürük. Sadəcə, belə bir sual vermək istərdik: vəzifəli şəxslərin təltif edilməsi nə qədər doğrudur? Axı Azərbaycan reallığında hansısa məmurun qanunsuzluqlara bulaşmayacağının təminatı yoxdur. Belədə onlara dövlətin orden-medallarını təqdim edib sonra da haqlarında ağır ittihamlar ortaya çıxarkən bunun ciddi nonsens yaratdığını nəzərə almaq lazımdır. Üstəlik, həmin nonsensin haqqında danışılan orden-medalların mötəbərliliyinə xələl gətirdiyini də unutmaq olmaz.

Bunu da vurğulamaqda fayda var. Bəzən elə vəzifəli şəxslərin mükafatlandırılması ilə bağlı ölkə başçısına təqdimatlar verilir ki, həmin məmurlar barədə ictimai rəydə daha çox neqativ fikir hakimdir. Nəticədə onların təltif edilməsi cəmiyyətdə birmənalı qarşılanmır. Ona görə də, Prezidentin etibarından sui-istifadə edərək haqlarında müsbət fikrin olmadığı məmurların mükafatlandırılması üçün təqdimatlar hazırlanmasına son qoyulmalıdır. Unudulmamalıdır ki, belə məmurlar üçün həmin təqdimatlar özləri barədə müsbət təəssürat yaratmağa, vəzifələrini qorumağa və gələcəklərini sığortalamağa hesablanıb, vəssalam!

Hərçənd son ilyarımdakı həbslər göstərdi ki, ölkədə korrupsiyaya bulaşmış heç bir vəzifəli şəxs qanunlar qarşısında cavab vermək perspektivindən xilas olmayıb. Elə bir zaman gəlir ki, belə məmurları həbsdən nə güclü himayədarları, nə də orden-medalları qorumur, daha doğrusu, qoruya bilmir.

Sadəcə, dövlət təltiflərinin mötəbərliliyinə xələl gətirməmək üçün vəzifəli şəxsin hansısa orden-medala təqdimatı hazırlanarkən yüz ölçüb bir biçməkdə fayda var. Bunu biz demirik, bunu hazırda həbsdə olan orden-medallı məmurlarla bağlı acı təcrübə deyir...

***Toğrul Əliyev***

# Nazir İnam Kərimov Zaqatala və Balakəndə fermerlərlə görüşüb

***Zaqatalanın tütün sahələrində məhsul yığımına başlanıb. Tütünçü fermerlər yığdıqları məhsulu qəbul məntəqələrinə təhvil verirlər. Kənd təsərrüfatı naziri İnam Kərimov Zaqatalada məhsul yığımının gedişini izləyib, tədarük məntəqələrində məhsulun qəbul prosesi ilə tanış olub. Bildirilib ki, bu il rayonda 588,7 hektar sahədə tütün əkilib. Ötən il rayon üzrə orta məhsuldarlıq 11,7 sentner təşkil edib. Bu il məhsuldarlığın daha çox olacağı gözlənilir.***

Görüşdə tütünçülüyün inkişafına dövlət dəstəyi mexanizmləri, fermerlərin davamlı şəkildə təlimlərə cəlb olunması, tütün şitilçiliyinin təşkili, tütünçülükdə dəyər zəncirinin formalaşdırılması, keyfiyyətli məhsul istehsalı və digər mövzular ətrafında fikir mübadiləsi aparılıb.

Yaxın zamanlarda rayonun fındıq bağlarında kütləvi yığıma start veriləcək. Yazlıq fındıq sortlarının yığımı isə davam edir. Zaqatala fındıq zavodunda keçirilən görüşdə bildirilib ki, rayonda 20183,4 hektar fındıq bağı mövcuddur, bunlardan 13183 hektarı bar verən yaşda olan bağlardır. Məhsulun erkən yığımı fındığın keyfiyyətinə mənfi təsir edir. Eyni zamanda, erkən yığım ağacların strukturunu zədələyir, nəticədə növbəti illərdə bağlarda orta məhsuldarlıq aşağı düşür. Bu səbəbdən Kənd Təsərrüfatı Nazirliyi yerlərdə fındığın erkən yığımının mənfi təsirləri ilə bağlı fermerlər arasında davamlı maarifləndirmə işləri aparır. Görülən işlər nəticəsində fındıqçılıq rayonlarında erkən yığım faizi kifayət qədər azalıb.

Nazirliyin nümayəndə heyəti Zaqatalada arıçı fermer Mövləddin Qurbanəliyevin arıçılıq təsərrüfatı ilə tanış olub. Qafqazda ilk dəfə olaraq Zaqatala rayonu ərazisində dağlıq zonada damazlıq arı ailələri üçün təcrid zonası yaradılıb. Təcrid zonasında hazırda yüzədək arı ailəsi saxlanır, zonada əldə olunan məhsuldarlıq 30 kiloqramın üzərindədir. Təsərrüfatda arılara qulluq sırf orqanik istehsalın tələblərinə uyğun aparılır.

Zaqatala yaş barama istehsalının həcminə görə respublikada ilk yerlərdən birini tutur. 2021-ci ildə zaqatalalı kümdarlar 43,4 ton yaş barama istehsal edərək qəbul məntəqələrinə təhvil veriblər. Ötən il Zaqatalada müasir standarlara cavab verən baramaqurutma müəssisəsi inşa olunub, bu il həmin məntəqədə ilk dəfə məhsul tədarükü həyata keçirilib.

Daha sonra nazirliyin nümayəndə heyəti Balakən rayonunda intensiv bağlara, Balakən yem istehsalı fabrikinə, Qullar kəndində yerləşən fındıq tingçiliyi təsərrüfatına və fındıq bağlarına baş çəkib. Fermerlərlə keçirilən görüşlərdə intensiv meyvə bağlarının sahəsinin ildən-ilə artmasının ölkənin kənd təsərrüfatı məhsullarının ixracı potensialının genişlənməsinə müsbət təsir göstərdiyi vurğulanıb. Hazırda Balakəndə 220 hektar sahədə intensiv meyvə bağı var. Rayonda həm də fındıqçılıq geniş inkişaf etməkdədir. Rayonda mövcud olan 10544 hektar fındıq bağının 5571 hektarı bar verən yaşdadır. Sentyabrın əvvəllərində rayonda kütləvi fındıq yığımına başlanacaq.

Zaqatala və Balakəndə keçirilən görüşlərdə qaldırılan məsələlər və təkliflər qeydə alınıb, müraciətlərin icrası üçün tapşırıqlar verilib.

# Soyqırımının 30 illiyini Xocalıda anacağıq...

***"Biz Xocalı soyqırımının 30-cu ildönümünü doğma yurdumuzda, Xocalıda qeyd edəcəyik. Azərbaycanın bir qarış torpağında belə düşmən olmamalıdır".***

Bunu Modern.az-a açıqlamasında Milli Məclisin Xocalıdan olan deputatı Elman Məmmədov deyib.

Onun fikrincə, Rusiya sülhməramlılarının müvəqqəti nəzarətində olan Xocalı digər ərazilərimiz kimi düşməndən təmizlənəcək və yerli sakinlər tezliklə öz yurdlarına qayıdacaqlar: "Təbii ki, Xocalıya, doğma el-obamıza qayıtmaq hamımızın arzusudur. İnşallah, Ali Baş Komandanımızın rəhbərliyi ilə Azərbaycan Ordusu başqa ərazilərimizi düşməndən təmizlədiyi kimi, Xocalını da bizə qaytaracaq. Doğma Xocalımıza qayıdıb, orada yaşamağa davam edəcəyik. Bu, mütləq olacaq. Heç kimin şübhəsi olmasın. Düşməndə çox kiçik bir ərazimiz qalıb, ora da gedəcəyik".

Deputat Xocalı sakinlərinin öv evlərinə qayıtmağa hazır olduğunu söyləyib: "Azərbaycan əraziləri tamamilə işğalçılardan təmizlənməlidir. Biz bunu gözləyirik və yurd-yuvamıza qayıdışın həsrətindəyik. Xocalı soyqırımının 30 illiyini doğma Xocalıda keçirəcəyik".

Qeyd edək ki, 44 günlük Vətən Müharibəsində Azərbaycan Ordusu düşməni darmadağın edərək, bütün şəhidlərimizin, o cümlədən Xocalı soyqırımı qurbanlarının qisasını alıb və doğma torpaqlarımızı işğaldan azad edib. Azərbaycanlılar 29 ildən sonra ilk dəfə Xocalı soyqırımının ildönümünü qalib xalq olaraq qeyd edib. Bu gün hamılıqla inanırıq ki, hazırda sülhməramlıların nəzarətində olan Xocalı və digər ərazilərimiz tezliklə əsl sahiblərinə qovuşacaq, xocalılar soyqırımın 30-cu ilində şəhidlərin xatirələrini öz yurdlarında anacaqlar.

# Dövlət Turizm Agentliyi tənqid hədəfində...

## Vətəndaşlar üç ildən çoxdur fəaliyyət göstərən bu dövlət qurumundan niyə şikayətçidirlər?

***Son günlər ictimaiyyət arasında, eləcə də mediada ciddi müzakirə mövzularından biri də ölkədaxili turizmdə qiymətlərin həddən artıq yüksək olmasıdır. Sosial şəbəkələrdə də vətəndaşların bu barədə çoxsaylı şikayətləri ilə rastlaşmaq mümkündür.***

Məsələ burasındadır ki, pandemiya səbəbindən xaricə istirahətə gedə bilməyən Azərbaycan vətəndaşları bölgələrimizə üz tutmağa başlayıb və onların sayında xeyli artım var.

2019-cu ildə Azərbaycan əhalisinin yarıdan çoxu, yəni təqribən 5 milyon nəfərdən çoxu xaricə səfər etmişdisə, ondan sonrakı dövrdə bu rəqəm 2 dəfə azalıb. Əlbəttə ki, buna pandemiya ilə əlaqədar olaraq bəzi ölkələrin giriş-çıxışına qoyulan məhdudiyyətlər səbəbdir. Bu baxımdan insanlar istirahət üçün regionlara və yerli turizm məkanlarına üz tutur. Amma yollandıqları istirahət mərkəzlərində “cib yandıran” qiymətlərlə rastlaşırlar. Nəticədə əhali arasında bununla bağlı narazılıqlar baş qaldırıb.

İstirahətə gedən vətəndaşlar qiymətlərin baha, xidmətin isə keyfiyyətsiz olduğundan gileylənirlər. Onlar bildirirlər ki, rayonlardan birində 3 günlük istirahətlərinə xərclədikləri pulla qonşu ölkələrdən birində rahat bir həftə dincəlmək mümkündür. Bölgələrə səfər edənlərin, dincəlmək üçün daxili turlarımıza üz tutanların çox olduğu bir vaxtda qiymətlərin “ceyran belində” olması hər kəsi düşündürür.

Hazırda İsmayıllı, Şamaxı, Qəbələ, Göygöl, Gədəbəy, Tovuz, Lerik, Masallı və s. rayonlarında istirahətə yararlı olan bütün yerlər işbazlar tərəfindən tutulub. Hər ağac kölgəsi, hər bulaq başında bir kvadrat yer 30-100 manata satılır. Bu təkcə əyləşməyin qiymətidir. Su, qida normal qiymətlərdən bir neçə




dəfə yüksəkdir. Bölgələrdə yerləşən kiçik otellər, kafe və restoranlarda da eyni mənzərə hökm sürür. 4 nəfərlik bir ailənin şam yeməyi 150 manata qədər xərc tutur ki, bu da əhalinin mövcud gəlirləri ilə müqayisədə hədsiz yüksəkdir. Gecələmək üçün bir otağa görə turistlərdən 80, 100 manat tələb olunur. İşbazlar yaxşı bilirlər ki, əlində dincəlmək üçün müəyyən vəsaiti olan ailələrin ölkədən çıxmaq imkanı məhduddur, yerli turistik məkanlar isə doludur və qiymətlər aşağı-yuxarı hamısında eynidir. Ona görə də, “qiymət oxuyub” daha çox pul qazanmağa çalışırlar.

Müqayisə bir qədər qüsurlu olsa da, iki il əvvələ qədər Azərbaycanı ayaqdan salmış ərəb turistlərinin başına açılan oyunlar indi yerli turistlərin başına gətirilir.

Bütün bunlar isə eyni zamanda Dövlət Turizm Agentliyinin ünvanına tənqidləri də artırıb.

Xatırladaq ki, adıçəkilən qurum Azərbaycan Respublikası Prezidentinin 20 aprel 2018-ci il tarixli “Mədəniyyət və turizm sahəsində dövlət idarəçiliyinin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında Sərəncam”ına əsasən Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin əsasında yaradılıb. Əsasnaməsinə uyğun olaraq Agentlik turizm sahəsində, habelə tabeliyindəki dövlət qoruqlarının ərazilərində yerləşən tarix və mədəniyyət abidələrinin qorunması sahəsində dövlət siyasətini və tənzimləməsini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır. Qurum həmçinin turizm sahəsində vahid dövlət siyasətinin formalaşdırılması və həyata keçirilməsi, turizm sahəsində normayaratma fəaliyyətinin icrası, dövlət tənzimləməsini, dövlət nəzarətini və əlaqələndirməni, turizmin inkişafı məqsədi ilə digər dövlət orqanları, müəssisələri və təşkilatları, habelə fiziki və hüquqi şəxslər, o cümlədən beynəlxalq və qeyri-hökumət təşkilatları arasında əlaqəli fəaliyyəti təmin etmək, qoruqların ərazilərindən məqsədyönlü istifadəni təşkil etmək və onların qorunub saxlanılmasını təmin etmək, milli kulinariya nümunələrinin qorunmasını və təbliğini təmin etmək istiqamətində fəaliyyət göstərir.

Lakin vətəndaşların, xüsusilə turizm zonalarında və obyektlərində aşağı keyfiyyətli xidmət, bunun müqabilində isə yüksək qiymətlə bağlı çoxsaylı şikayətləri Dövlət Turizm Agentliyinin öz işinin öhdəsindən tam gələ bilmədiyinə dair şübhələr yaradır. Əlbəttə, Agentliyin qiymət müəyyənləşdirməsi bazar iqtisadiyyatının tələblərinə zidd olardı. Bununla belə, xidmət səviyyəsinin yüksəldilməsi və qiymətlərin tənzimlənməsi istiqamətində müəyyən addımlar atmaq mümkündür. Nəinki mümkündür, hətta vacibdir.

Unutmayaq ki, turizm sahəsi Mədəniyyət və Turizm Nazirliyinin nəzarətində olarkən oxşar problemlər bir an olsun belə gündəmdən düşmürdü. Əgər Dövlət Turizm Agentliyi yarandıqdan sonra da həmin problemlər ictimai müzakirə mövzusudursa, öz aktuallığını qoruyub saxlayırsa, deməli, adıçəkilən qurumun öz fəaliyyətinə nəzər salmasında fayda var. Əks halda Agentliyin ünvanına iradlar, tənqidlər getdikcə daha yüksək səslə dilə gətiriləcək...

**Sənan Mirzə**

# “Azəriqaz” rəhbərindən sahibkarlarla bağlı açıqlama

***“Qaz təchizatı sahəsində ölkə üzrə kommunal xidmətləri təqdim edən “Azəriqaz” İstehsalat Birliyi dövlət müəssisəsi kimi sosial məsuliyyətini dərk edərək öz səlahiyyətləri çərçivəsində və imkanları daxilində bütün istehlakçılara münasibətdə göstərdiyi dəstəyi təbii qazdan istifadə edərək sahibkarlıq fəaliyyəti ilə məşğul olan subyektlərdən də əsirgəmir. Bu dəstəyin bir forması biznes layihələrinin reallaşdırılması ilə əlaqədar sahibkarların kommersiya obyektlərinin qazlaşdırılmasında, qazlaşdırılmış obyektlərin tələbata uyğun olaraq fasiləsiz və təhlükəsiz qaydada təbii qazla təchiz olunmasında və bununla əlaqədar geniş spektorlu xidmətlərin təqdim edilməsində ifadə olunur”.***

“Unikal” xəbər verir ki, bu barədə “Azəriqaz” İB-nin baş direktoru Ruslan Əliyev KİV-ə açıqlamasında bildirib. “Təbii inhisarçı olaraq fəaliyyət göstərməyimiz qaz təchizatı sahəsində təqdim edilən xidmətlər üzrə bizim məsuliyyətimizi daha da artırır. Belə ki, Azərbaycan Respublikasında yaşayan və fəaliyyət göstərən fiziki və hüquqi şəxslərin başqa qazpaylayıcısını seçmək imkanları yoxdur. Bu səbəbdən də fəaliyyətimizi elə qururuq ki, xidmət növlərinin artırılması, keyfiyyətinin yüksəldilməsi və operativ surətdə təqdim edilməsi, eləcə də yeni, rahat və innovativ üsullarla (“ASAN xidmət” və “ASAN Kommunal” mərkəzləri vasitəsilə) sahibkarlara çatımlığının təmin olunması yolu ilə müştəri məmnunluğuna nail olaq, qaz təchizatı ilə əlaqədar sahibkarların sorğularına, tələbatlarına cavab verək.

Bunun üçün bir tərəfdən yeni qaz xətlərinin çəkilməsi, mövcud şəbəkənin gücləndirilməsi, təmir-profilaktika işlərinin vaxtında aparılması, payız-qış mövsümünə hazırlıq işlərinin görülməsi, digər tərəfdən isə zəmanənin tələblərinə uyğun olaraq əlavə vaxt itirmədən, heç bir məsafə qət etmədən bilavasitə “onlayn” şəkildə müraciət edərək yerindəcə əldə olunması üçün elektron xidmətlərin yaradılması həyata keçirilir. Bununla bağlı Azərbaycan Respublikası Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin “İnnovasiyalar Mərkəzi” MMC ilə bağlanmış müvafiq müqaviləyə əsasən mərhələli şəkildə işlər həyata keçirilməkdədir. İlkin mərhələdə “Azəriqaz” İB-nin “ASAN Kommunal” mərkəzlərində göstərdiyi xidmət növlərinin bir hissəsi Birliyə məxsus vahid yeni portalda istifadəçilərə təqdim ediləcəkdir. Sonrakı mərhələdə isə “İOS” və “Android” mobil platformaları üzərindən elektron xidmətlərin göstərilməsi planlaşdırılır.

Sahibkarlara göstərilən dəstəyin digər forması da bilavasitə onların istifadə etdikləri təbii qaza görə yaranmış borcların ödənilməsində güzəştlərin tətbiq olunması ilə əlaqədardır”,- deyə baş direktor qeyd edib.

R. Əliyev bildirib ki, koronavirus (COVID-19) pandemiyası dünya iqtisadiyyatına böyük zərbə vurmaqdadır: “Davam edən qlobal pandemiya şəraitində əhalinin sağlamlığının qorunması məqsədilə tətbiq edilən məhdudiyyətlər ölkə iqtisadiyyatına ziyansız, sahibkarlara itkisiz ötüşməmişdir. Tam müfəssəl formada hesablamaq çətin olsa da, ölkə iqtisadiyyatına vurulan gündəlik zərər təqribən 120-150 milyon manat civarında qiymətləndirilmişdir. Hələ bu şəraitdə Azərbaycan Respublikasının Ali Baş Komandanı möhtərəm İlham Əliyevin rəhbərliyi altında Müzəffər Ordumuz tərəfindən torpaqlarımızın erməni işğalından azad edilməsi prosesinə başlanılmış və 44 gün davam edən Vətən müharibəsi Azərbaycan xalqının zəfəri ilə nəticələnmişdir. Bununla belə, qabaqlayıcı tədbirlər görən Azərbaycan dövləti pandemiyadan az itkilərlə çıxmaq və makroiqtisadi sabitliyi qorumaq üçün bütün imkanlarını səfərbər etmişdir. Prezident cənab




İlham Əliyevin təşəbbüsü ilə əhalinin sosial rifahının yaxşılaşdırılması, sahibkarlara dəyən zərərin ödənilməsi istiqamətində ciddi qərarlar qəbul edilib, bir sıra qanunvericilik aktlarında dəyişikliklər olunub. Həmin dəyişikliklərə əsasən, sahibkarlıq subyektlərinə vergi güzəştləri və tətillərinin verilməsi, sosial sığorta yükünün azaldılması, kredit faizlərinin subsidiyalaşdırılması və zəmanət alətlərinin təkmilləşdirilməsi prosesi həyata keçirilir. Pandemiyanın “Azəriqaz” İB-də neqativ təsir göstərməsinə baxmayaraq (istehlakçıların ödəniş qabiliyyətinin aşağı düşməsi nəticəsində debitor borclar artdı, Birliyin tərəf müqabili olduğu müqavilələr üzrə ödəniş öhdəliklərinin yerinə yetirilməsində ciddi çətinliklər yarandı və s.) sahibkarlara münasibətdə yaranmış borcların mərhələli şəkildə ödənilməsinə dair razılaşmalar imzalandı.

Bundan başqa xarici bazarlara məhsullarının ixrac edilməsində çətinlikləri yaranan sahibkarlarla təkcə fərdi qaydada deyil, həm də onların birləşdikləri peşəkar qurumları (Azərbaycan Meyvə-Tərəvəz İstehsalçıları və İxracatçıları Assosiasiyası) ilə daha sıx əməkdaşlıq etməklə də köməklik edildi. Dünyanın 50 ölkəsində 5 mindən artıq şirkət və təşkilatı birləşdirən, Xəzər-Qara dəniz və Baltik region dövlətləri ərazisində fəaliyyət göstərən və “Azəriqaz” İB-nin də üzvü olduğu nüfuzlu Caspian Energy Clubun onlayn platformasından sahibkarları maraqlandıran suallara cavab verilir, qaldırılan problemlərin həll olunmasında köməklik göstərilir, qarşılıqlı faydalı əməkdaşlığın qurulması, biznes mühitinin inkişaf etdirilməsi istiqamətində mütəmadi olaraq sahibkarlarla görüşlər təşkil olunur, aktual məsələlər müzakirə edilir.

Məlum olduğu kimi, regionların sosial-iqtisadi inkişaf dövlət proqramları çərçivəsində Azərbaycan Respublikası Prezidentinin rəhbərliyi ilə ölkədə yoxsulluq və işsizliyin səviyyəsinin azaldılması istiqamətində davamlı surətdə kompleks tədbirlər həyata keçirilir: yeni iş yerləri açılır, abadlıq işləri həyata keçirilir, sosial infrastruktur inkişaf etdirilir və s. Uğurla həyata keçirilən bu siyasətə və ölkə başçısının biznes ictimaiyyətinə yönələn sosial məsuliyyətin artırılması çağrışına dəstək olaraq SOCAR-ın həyata keçirdiyi böyük bir sosial layihə çərçivəsində 9 min fərdi sahibkar xidmət müqaviləsi əsasında “Azəriqaz” İB-yə işə cəlb olunmuşdur. “Azəriqaz” İB ölkədə işsizliyin minimuma endirilməsi, məşğulluğun artırılması, əhalinin sosial dayanaqlığının möhkəmləndirilməsi, biznes mühitinin yaxşılaşdırılması və sahibkarlara dəstək göstərilməsi istiqamətində aparılan dövlət siyasətinə bundan sonra da daim dəstəyini göstərəcəkdir”.

## İstiqamət: Diaspor quruculuğu, lobbiçilik və dünya azərbaycanlılarının həmrəyliyi

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Diaspor təşkilatları Azərbaycanın xaricdəki haqq səsi olmalıdır!

### İsmayıl Ağayev: ""Çox yaxşı olardı ki, Şuşa səfərinə dəvət edilən diaspor nümayəndələri özləri ilə Şuşaya yaşadıqları ölkələrdə çalışan, əlaqələrinin güclü olduğu jurnalistləri, ictimai xadimləri də dəvət edəydilər"

***Ermənistan-Azərbaycan münaqişəsi dövründə, həmçinin 44 günlük müharibə müddətində Azərbaycan xalqı bir olaraq Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşməyi bacardı. Azərbaycanın haqq səsinin dünyaya çatdırılmasında ən böyük iş isə hər zaman olduğu kimi, xaricdəki diaspor təşkilatlarının üzərinə düşdü.***



Dünya azərbaycanlılarının həmrəyliyi ölkəmizin haqq savaşının dünyaya çatdırılmasına bir dəstək oldu. Bu günlərdə isə diaspor nümayəndələri, xaricdə yaşayan azərbaycanlılar Azərbaycan əsgərinin qəhrəmancasına azad etdiyi, xalqımızın qürur yeri olan Şuşanı ziyarət etdilər. Səfərdə 24 ölkədən 72 soydaşımız iştirak etdi. "Biz dəmir yumruğun gücü ilə Şuşadayıq" şüarı altında reallaşan səfər Azərbaycan diaspor tarixinin ən mühüm tədbirlərindən biridir. Xaricdə yaşayan soydaşlarımızın Azərbaycanın mədəniyyət paytaxtına səfərinin Diasporla İş üzrə Dövlət Komitəsi tərəfindən təşkili cəmiyyətdə də müsbət qarşılandı. Ekspertlər də, diaspor quruculuğu, lobbiçilik və dünya azərbaycanlılarının həmrəyliyinin haqq səsimizin dünyaya çatdırılmasında rolunun böyük olduğu qənaətindədirlər. Qeyd edək ki, bu məsələdə düşmən diaspor fəaliyyətindən var gücü ilə yararlanmağa çalışır. İndiyədək erməni lobbisinin əsas vəzifələrindən biri qondarma Dağlıq Qarabağ respublikasının tanınması və ona yardım göstərilməsinə nail olmaq idi. Onlar bunun üçün, əsasən ABŞ, Fransa kimi dövlətlərdən kömək almağa çalışırdılar. Hətta 1990-1994-cü illər ərzində ABŞ-dakı erməni diasporu Qarabağda gedən işğalçı müharibəni maliyyəşdirmək üçün on milyonlarla dollar vəsait toplayıb Ermənistana göndərmişdi. Amma görünən odur ki, erməni lobbisinin apardığı bütün təbliğatlara baxmayaraq Azərbaycan bu sahədə də onlara qalib gəldi. Bu qalibiyyət yalan təbliğatlarla yox ordu, güc, birlik, siyasi iradə sayəsində əldə edildi. Heç sözsüz ki, erməni diasporu xaricdə yaşayan həmvətənlərimizin, diaspor nümayəndələrinin Şuşaya səfərini böyük narahatlıqla izlədi. Sosial şəbəkələrdə diaspor nümayəndələrinin, xaricdə yaşayan azərbaycanlıların Şuşa səfərinə aid böyük paylaşımlar oldu. Bu səfər Azərbaycanın güclü, həmrəy olduğunu bir daha təsdiq etdi.

Rusiya Federasiyasının "Arxangelsk vilayətinin Azərbaycan diasporu" ictimai təşkilatının idarə heyətinin sədri Tərlan Qasımov bu günün onun üçün özəl olduğunu qeyd edib və Şuşada keçirdiyi qürur hissindən danışıb:"Ömrümün 47-ci ilini yaşayıram. Biz işğaldan azad olan torpaqlardan keçdikcə düşünürəm ki, mənim üçün ömrümün ən kədərli günü də, ən sevincli günü də budur. Yurdumuzu xarabazar gördük. Amma bu xarabazarlıqdan bir azadlıq boylanırdı. Hər bir çiçəyin, yarpağın, ağacın öz vətəndaşı ilə dialoqunu gördük. Əhəmiyyətli olan odur ki, bu gün bu torpağın əsl sahibi bura ayaq basır. Qarabağ Azərbaycandır! Növbəti dayanacaq da Zəngəzurdur".

Beynəlxalq Diaspor Mərkəzinin (BDM) sədri İsmayıl Ağayev işğaldan azad edilmiş torpaqlarımıza diaspor nümayəndələrinin səfərlərinin alqışlanan olduğunu söyləyir. Həmsöhbətimiz deyir ki, Azərbaycanın haqq səsinin dünyaya çatdırılmasında diaspor təşkilatlarının üzərinə böyük məsuliyyət düşür. İ. Ağayev deyir ki, ümumilikdə diaspor nümayəndələrinin işğaldan azad edilmiş torpaqlarımıza getməsi, işğal dövründə həmin torpaqlarda aparılan vandalizm aktlarını dünyaya göstərməsi, bu istiqamətdə beynəlxalq təşkilatlara məktub yazması, məlumat verməsi vacib amildir. Amma İ. Ağayev bu məsələdə bir həssas məqamı unutmamağı tövsiyyə edir. Həmsöhbətimiz deyir ki, onun xaricdə yaşayan azərbaycanlıların Şuşaya aparılmasına, diaspor nümayəndələri ilə birgə səfərinə etirazı yoxdur. Amma İ. Ağayev bu səfərlərdə diaspor nümayəndələrinin əlaqələrindən istifadə edilməsinin çox zəruri olduğunu bildirir: "Çox yaxşı olardı ki, Şuşa səfərinə dəvət edilən diaspor nümayəndələri özləri ilə Şuşaya yaşadıqları ölkələrdə çalışan, əlaqələrinin güclü olduğu jurnalistləri, ictimai xadimləri də dəvət edəydilər". Bu çox mühüm amildir. Mən hansısa xaricdə yaşayan azərbaycanlı tələbənin o səfərə dəvət edilməsinə etiraz etmirəm. Yaxud da hansısa diaspor nümayəndəsinin işğaldan azad edilmiş torpaqlarımıza getməsini pisləmirəm. Amma daha yaxşı olardı ki, onlar həmin ölkədən çox yaxşı əlaqə qurduqları əcnəbi jurnalisti, ictimai xadimi də gətirəydilər. Biz çalışmalıyıq ki, Azərbaycanın haqq səsini xarici ölkələrin jurnalistləri, ictimai-siyasi xadimləri dilə gətirsin. Diaspor təşkilatları bu məsələni mütləq diqqətdə saxlamalıdırlar".

İ. Ağayev bildirir ki, işğaldan azad edilmiş torpaqlarımızda təcavüzkar dövlətin əməlləri diaspor təşkilatlarının əlaqələri ilə dünyaya daha geniş masştabda çatdırılmalıdır. Bununla bağlı beynəlxalq təşkilatlara müraciətlər ünvanlanmalı, onların diqqəti işğalçı dövlətin vəhşi əməllərinə yönəldilməlidir.

Qeyd edək ki, Azərbaycanın sərhədlərindən kənarda yaşayan milyonlarla soydaşımızın vahid bir amal ətrafında birləşməsi istiqamətində bu günə qədər xeyli nailiyyət əldə olunub. 50 milyon azərbaycanlının bir amal uğrunda birləşməsi isə sözsüz ki, düşmənə böyük zərbə olmaqla yanaşı, bu dövlətin əsl simasının dünyaya çatdırılmasına töhvə verəcək. Necə deyərlər, "El bir olsa, dağ oynadar yerindən!".

***Gülayə Məcid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**



## Jurnalistikaya qəbul üçün qabiliyyət imtahanı keçirildi

***Dövlət İmtahan Mərkəzi avqustun 19-da 2021/2022-ci tədris ili üçün ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinin jurnalistika ixtisasına qəbul olmaq istəyən abituriyentlər üçün qabiliyyət imtahanı keçirib.***

Mərkəzdən "Unikal"a verilən məlumata görə, bu mərhələdə III ixtisas qrupu üzrə test imtahanı verərək müsabiqə şərtini ödəyən və jurnalistika ixtisasına qəbul olmaq üçün internet vasitəsilə anket doldurараq qeydiyyatdan keçmiş abituriyentlər iştirak ediblər.

İmtahan Bakı şəhərində və DİM-in regional bölmələrinin yerləşdiyi Naxçıvan, Gəncə, Lənkəran, Şəki, Bərdə, Göyçay, Şirvan, Xaçmaz şəhərlərində təşkil olunub. İmtahanın keçirilməsinə 10 imtahan binası, 59 zal, 12 imtahan rəhbəri, 78 nəzarətçi-müəllim, 20 buraxılış rejimi əməkdaşı (mühafizə) cəlb olunub.

İmtahan bütün binalarda saat 10:00-da başlanıb və 2 saat 30 dəqiqə davam edib.

İmtahanın başlanmasından bir neçə dəqiqə əvvəl Mətbuat Şurasının və KİV nümayəndələrinin iştirakı ilə təklif olunan 210-dan çox mövzu arasından 3 mövzu seçilib və videobağlantı vasitəsilə imtahan mərkəzlərinə çatdırılıb. Abituriyentlər təqdim olunmuş mövzulardan biri üzrə inşa (esse) yazıblar.

İmtahan nəticələri yaxın günlərdə - yazı işlərinin yoxlanılması prosesi başa çatdıqdan sonra elan olunacaq.

İmtahandan məqbul qiymət alan abituriyentlər ixtisas seçimi zamanı jurnalistika ixtisasını ərizələrində qeyd edə biləcəklər. Həmin abituriyentlər nəticələr elan olunduqdan sonra ixtisas seçimi etməlidirlər.

## Azərbaycanda VAR sistemi tətbiq olunacaq

***AFFA-nın İcraiyyə Komitəsinin növbəti iclası keçirilib.***

"Unikal" xəbər verir ki, yığıncaq videokonfrans formatında təşkil olunub. Komitə üzvləri bir sıra məsələləri müzakirə edib. Yekunda aşağıdakı qərarlar qəbul olunub:

1.Azərbaycan Premyer Liqasında VAR (video köməkçi hakim) sisteminin tətbiqi ilə bağlı tender sənədlərinə uyğun olaraq müvafiq hüquqi prosedurların icrasına başlanılsın və 2021/2022-ci mövsümünün qış fasiləsindən sonra VAR sisteminin tətbiqi nəzərdə tutulsun.

2.2021-ci il sentyabrın 1-dən etibarən Azərbaycan Premyer Liqası hakimləri ilə bağlı "Peşəkar hakim" sistemi tətbiq olunsun (Peşəkar hakim sistemi ilə əlaqədar ictimaiyyətə əlavə məlumat veriləcək).

3."2022-2023-cü il mövsümü üçün "Klubların lisenziyalaşdırması üzrə qaydalar" təsdiq olunsun.

4.İntizam Komitəsinin müfəttişi vəzifəsi Namiq Əliyevə həvalə olunsun.

5.Premyer Liqa klublarının müraciətinə uyğun olaraq, COVİD-19 pandemiyasının yaratdığı çətinliklər nəzərə alınaraq AFFA tərəfindən 2021/2022-ci il mövsümündə də klublara maliyyə yardımı davam etdirilsin. Maddi dəstəyin məbləği AFFA ilə klublar arasında danışıqlardan sonra müəyyənləşdirilsin.

# Milli Qəhrəmanımızın büstü hazırlandı

***Azərbaycanın Milli Qəhrəmanı, Xüsusi Təyinatlı Qüvvələrin şəhid polkovnik-leytenantı Murad Mirzəyevin büstü hazırlanıb.***

"Unikal" modern.az-a istinadən xəbər verir ki, büstü gənc heykəltəraş Leyla Məmmədova ərsəyə gətirib.

Qeyd edək ki, Xüsusi Təyinatlı Qüvvələrin polkovnik-leytenantı, Milli Qəhrəman Murad Mirzəyev 1976-cı il martın 31-də Sabirabad rayonunun Muğan Gəncəli kəndində anadan olub. 1998-ci ildə Türkiyədə Ali Hərbi Məktəbi bitirib, ABŞ, Rumıniya, İordaniya kimi ölkələrdə təlimlər keçib.

M.Mirzəyev 2016-cı ildə Aprel döyüşlərində qəhrəmancasına şəhid olub. Şəhid zabitin nəşi aprelin 10-da Beynəlxalq Qırmızı Xaçın vasitəçiliyi ilə döyüş meydanından götürülərək Azərbaycana təhvil verilib. M.Mirzəyev aprelin 11-də İkinci Fəxri xiyabanda dəfn olunub.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin 2016-cı il 19 aprel tarixli sərəncamı ilə ölkəmizin ərazi bütövlüyünün qorunub saxlanılmasında xüsusi xidmətlərinə və döyüş tapşırığını yerinə yetirərkən göstərdiyi şəxsi igidliyə görə polkovnik-leytenant Mirzəyev Murad Telman oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib.

# Bakıda fəhlənin ölümü ilə bağlı cinayət işinin başlanması rədd edildi

***Cari il iyunun 23-də 1964-cü il təvəllüdlü Həsənov İlham İbaş oğlunun paytaxtın Nəsimi rayonu ərazisində yerləşən hündürmərtəbəli binanın 12-ci mərtəbəsindən yıxılaraq ölməsi barədə Nəsimi rayon prokurorluğuna məlumat daxil olmuşdur.***

Baş Prokurorluğun Mətbuat xidmətindən Unikal.org-un sorğusuna cavab olaraq bildirilib ki, prokurorluq əməkdaşları tərəfindən məhkəmə-tibb ekspertinin iştirakı ilə hadisə yerinə və meyitə baxış keçirilmiş, digər prosessual hərəkətlər yerinə yetirilmişdir:

"Araşdırma zamanı müəyyən edilmişdir ki, qeyd edilən ünvanda yerləşən binanın 9-cu mərtəbəsindəki mənzildə alçıpan vurulması işlərində fəhlə kimi işləyən İlham Həsənov çay içmək adı ilə binanın 12-ci mərtəbəsinə qalxaraq oradan özünü yerə ataraq intihar etmişdir.

Mərhum İlham Həsənovun maddi, xidməti və s. cəhətdən asılı olduğu hər hansı şəxs tərəfindən amansız rəftar etmə, ləyaqəti alçaltma, hədə-qorxu gəlmə hallarına məruz qalması müəyyən olunmadığından araşdırma üzrə cinayət işinin başlanmasının rədd edilməsi barədə qərar qəbul edilmişdir.Toplanmış material üzrə tam, hərtərəfli və obyektiv araşdırma aparılmasını təmin etmək məqsədilə rayon prokuroru tərəfindən həmin qərar ləğv edilmişdir.

Hazırda faktla bağlı araşdırma davam etdirilir".

*Seymur Əli*

# Bakı küçələrində yol təhlükəsizliyi artırılıb

***Bakının Yavər Əliyev və Səməd bəy Mehmandarov küçələrinin kəsişməsində yol hərəkət təhlükəsizliyi artırılıb.***

Bu barədə "Unikal" Bakı Nəqliyyat Agentliyinə istinadən xəbər verir. Bildirilir ki, paytaxt ərazisində yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi istiqamətində daha öncədən aparılan araşdırmalar zamanı Sabunçu rayonu Yavər Əliyev və Səməd bəy Mehmandarov küçələrinin kəsişməsində qeyd olunan nəqliyyat problemləri aşkar edilib:

- kəsişmədə hərəkətin svetoforlar vasitəsilə tənzimlənməməsi nəticəsində axınlar arasında mübahisəli nöqtələrin mövcudluğu;
- kəsişmənin hərəkəti buraxma qabiliyyətinin aşağı, nəqliyyat intensivliyinin isə yüksək olması səbəbindən tıxac və sıxlıq hallarının yaranması;
- piyada infrastrukturunun olmaması.

Həyata keçirilmiş dəyişikliklər nəticəsində Yavər Əliyev və Səməd bəy Mehmandarov küşələrinin kəsişməsində svetofor obyektləri quraşdırılıb, eyni zamanda Nazim İsmayılov və Yavər Əliyev küçələrinin kəsişməsindəki svetofor obyektləri ləğv edilib.

Qeyd edilib ki, Yavər Əliyev və Səməd bəy Mehmandarov küçələrinin kəsişməsindəki mübahisəli nöqtələr aradan qaldırılıb, hərəkətin növbəliliyi təmin edilib və yol hərəkəti təhlükəsizlik səviyyəsi artırılıb, tıxac və sıxlıq hallarının baş verməə ehtimalı azaldılıb, təşkil edilmiş nizamlanan eyni səviyyəli piyada keçidləri sayəsində piyadaların, xüsusilə yaxınlıqdakı avtobus dayanacaq məntəqələrindən və Bakıxanov Dəmir Yol Stansiyasından istifadə edən piyadaların təhlükəsizliyi maksimum həddə çatdırılıb.

Xatırladaq ki, svetoforun fəaliyyətinin təkmilləşdirilməsi üzərində mütəxəssisər tərəfindən işlər aparılır və svetofor hazırda test rejimində fəaliyyət göstərir.

# Bank kartlarından pullar necə oğurlanır - ARAŞDIRMA

***Son zamanlar kibercinayətlərin sayında çoxalma müşahidə olunur. Əsasən də onlayn fırıldaqçılıq - pul oğurluqları halları daha çox müşahidə edilir. Artıq neçə ildir ki, dünyanın aparıcı ölkələri bu kibercinayətkarlıqla mübarizə aparır.***

Onlayn fırıldaqçılıq son illərdə ölkəmizdə də müşahidə edilməyə başlayıb. Dələduzlar daha çox bank müştərilərini aldadaraq onların pullarını internet üzərindən ələ keçirməyi bacarırlar.

Azvision.az bank müştərilərinin dələduzların hədəfinə necə çevrildiyini, vəsaitlərin verirdi. Mən də öz dilimizdə cavab verirdim. Gördüm, bizim dili başa düşmür. Sual etdim ki, azərbaycan dilində bilirmi? Çox güman ki, bilmirdi. Cavab olaraq "sizi azərbaycan dilini bilən əməkdaşımıza yönləndirirəm" dedi. Beləcə, başqa adamla danışmalı oldum. Bu şəxs isə özünü Kapital Bankın Təhlükəsizlik şöbəsinin əməkdaşı kimi təqdim etdi. Bir neçə dəqiqə danışdıqdan sonra anladım ki, bu şəbəkə məni aldatmaq niyyətindədir. O da mənim işin gedişatını anladığımı hiss etdi və telefonu qapatdı. Hər kəs ehtiyatlı olsun. Bakı nömrəsindən zəng gəlsə belə ehtiyatlı olun".

matlarını müxtəlif həvəsləndirici təkliflər vasitəsilə əldə edib, onlara məxsus kartdan vəsaitləri mənimsəyir:

"Daxili İşlər Nazirliyi vətəndaşları belə hadisələrə qarşı diqqətli olmağa çağırır. Bu kimi hallarla üzləşən vətəndaşların nazirliyin 102 xidmətinə müraciət etmələrini xahiş edirik".

Sosial şəbəkələrdə bu cür hallarla bağlı xeyli paylaşımlar var. Əsasən "WhatsApp" sosial şəbəkəsi vasitəsilə zəng edərək və ya SMS yazıb, özlərini bank işçisi kimi təqdim edirlər. "WhatsApp" sosial şəbəkəsindəki nömrələr adətən xarici ölkələrə aid olur. Ancaq bəzi hallarda




onlayn şəkildə hansı yollarla qarət olunduğunu araşdırıb.

Azərbaycan vətəndaşı Əkbərov Camal bir neçə gün öncə fırıldaqçıların hədəfinə çevrilib. O bildirir ki, dələduzlar hesabından 3000 manat oğurlamağı bacarıblar:

"+994550002212 nömrəsindən zəng edərək özlərini Kapital Bankın təhlükəsizlik xidmətinin əməkdaşları kimi təqdim etdilər. Məndən hesabımdakı pulu sığortalamaq adıyla bütün informasiyaları aldılar. Sanki hipnoz edilmişdim. Dəfələrlə belə hadisələr barədə eşitsəm. də, buna baxmayaraaq belə bir "onlayn tələ"yə düşdüm. Hələ də şokdayam. Dərhal 196 çağrı mərkəzinə və 102-yə zəng vurdum. Lakin artıq gec idi və 3000 AZN hesabımdan çıxılmışdı".

Elşən Məmmədov isə dələduzların hədəfindən son anda qurtula bilib. O zəng edən şəxsin fırıldaqçı olmasından şübhələndikdən sonra ona qurulan tələdən yayına bilib:

"Dələduz özünü Kapital Bankın əməkdaşı Nurlana xanım kimi təqdim etdi. Dedi ki, kartın təhlükəsizliyi ilə bağlı zəng edib. Rus dilində suallar

Kapital Bankın İctimaiyyətlə əlaqələr şöbəsinin rəisi Pərviz Sədrəddinov bildirdi ki, müştərilərin öz kart məlumatlarının 3-cü şəxslərə verməsi halları hər zaman olub və indi də var. Banka belə bir müraciət olduqda onlar kartın sahibinə pulun silindiyi platforma və əməliyyatlar barədə məlumat təqdim edir:

Kapital Bank mütəmadi olaraq mətbuatda, sosial şəbəkələrdə ödəniş kartlarından təhlükəsiz istifadə barədə məlumatlandırıcı xəbərlər paylaşır, cəmiyyətdə maarifləndirmə tədbirləri həyata keçirir, həmçinin kibercihayətkarlarla üzləşməmək üçün təhlükəsizlik qaydalarına riayət etmək barədə SMS-bildirişlər göndərir. Saytınız vasitəsilə bir daha əhaliyə müraciət edərək bildirmək istərdik ki, kart məlumatlarını paylaşmasınlar, şübhə doğuran əməliyyatları həyata keçirməsinlər".

Daxili İşlər Nazirliyinin (DİN) Kütləvi İnformasiya və ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi, polis mayoru Elşad Hacıyev isə bildirdi ki, dələduzlar kart sahiblərinin məlu-

Azərbaycana aid mobil operatorların nömrələrini də müşahidə etmək olur. Maraqlıdır, bəs onlar vətəndaşların nömrə və adlarını necə öyrənirlər?

Kibertəhlükəsizlik üzrə ekspert Tural Məmmədov bildirdi ki, dələduzlar xarici nömrələri onlayn nömrə satışı ilə məşğul olan saytlardan əldə odirlər. Yerli nömrələr isə "fişinq" yolu ilə əldə edilir. İnsanlar elan saytlarında hər hansı paylaşım edərkən bunu qəti şəkildə öz adları ilə etməsinlər. Çünki fırıldaqçılar adətən nömrə və adları elan saytlarından götürürlər:

"Onların əlində ad, soyad və nömrə olması kifayət edir ki, həmin abunəçiyə zəng edib bank adından dələduzluq əməlləri törətsinlər. Elan saytlarında öz adınızla yox, başqa adla qeydiyyatdan keçdiyinizdə isə dələduz sizə elanda yerləşdirdiyiniz adla müraciət edən kimi, onun fırıldaqçı olduğunu biləcəksiniz. Çünki o sizin əsl adınızı bilmir. Haqqınızda "Getcontakt" proqramında məlumatların olması da dələduzlar üçün ideal şərait yaradır."

# Məhərrəmlikdə toy olsun, ya olmasın?

***İahiyyatçı din xadimi, ilahiyyat elmləri doktoru, İçərişəhər "Cümə" məscidinin axundu, Qafqaz Müsəlmanları İdarəsinin İçərişəhər üzrə səlahiyyətli nümayəndəsi Hacı Surxay Məmmədli deyib: "Məhərrəmlikdə toy edənlərin 99 faizi xoşbəxt olmayacaq, uşaqları xəstə doğulacaq".***

Aşura günü ərəfəsində bir növ qarğışı xatırladan bir cümləlik bu fikir hazırda sosial şəbəkələrdə geniş və hərtərəfli müzakirə olunur. Onu tənqid edənlər də var, müdafiəsinə qalxanlar da, lağlağı obyektinə çevirənlər də. Mən hörmətli hacının bu fikriylə bağı nəsə demək istəmirəm. Çünki bu onun şəxsi baxışıdır. Bəlkə də, bununla insanları Məhərrəm ayında toy, şadlıq etməkdən çəkindirmək, bəlkə də, söylədiyinə həqiqətən inandığı üçün başqalarını da inandırmaq istəyir. Bəlkə də, bu fikriylə həqiqətən insanları yanlış yoldan çəkindirmək, onları qəzəbə gəlməkdən, bədbəxtlikdən qorumaq istəyir. Ola bilsin ki, Hacı Surxay üçün belə bir şey son dərəcə ağlasığmazdır və bu səbəbdən duyğularını dilə gətirib. Şəxsən mənə bu haqda dəqiq nəsə demək, onun fikrini analiz etmək çətindir, odur ki, öz baxışımı və fikirlərimi bölüşməyə çalışacağam.

Axund Hacı Surxayla təxminən eyni nəsli təmsil etsək də, mən dini yox, dünyəvi dünyagörüşə malik adamam. İbadətlə məşğul olmur, özümü "ənənəvi müsəlman" sayıram. Deyəcəksiniz, bu necə olur? Çox sadə. Azərbaycan xalqının əksəriyyəti kimi, mən də belə böyümüş, belə tərbiyə almışam. Sovet məktəbinə getmiş, ateist ruhda təlim-tərbiyə almış, konfessional yox, elmifəlsəfi düşüncəyə meyil etmişəm. Doğrudur, SSRİ dağılanda kommunist-ateist ideologiya öz yerini liberal millətçiliyə, tolerantlığa verdikdən sonra bir çoxları dindar oldular, onları narahat edən məsələlərə, suallara islam dinində cavab tapdılar, bəziləri ibadət əhli, hacı, kərbəlayi, məşədi oldular, ancaq məndə bu alınmadı. Sovet dövründə qatı ateist olmadığım kimi, indi də qatı dindar deyiləm. Ancaq dini rituallları yerinə yetirməsəm də, mənsub olduğum toplumun dini adət və ənənələrinə dözümlü və hörmətlə yanaşıram. Yetər ki, dindar qardaşbacılarım da mənim panteist mövqeyimə sayğılı olsunlar.

Keçirəm günümüzün sualına: Məhərrəm ayında, yəni məhərrəmlikdə toy etmək olar, yoxsa yox? Bəziləri, xüsusilə də, yeni nəsil ilahiyyatçılar, onların tərəfdarları bunun islam dini ilə heç bir əlaqəsi olmadığını iddia edir, arqumentlər, faktlar gətirir, islam tarixi haqqında biliklərini nümayiş etdirir, müqayisələr aparırlar. Ərz edim ki, bəzən tamamilə haqlı görünürlər? Yəni niyə tutaq ki, təxminən 1400 il əvvəl şəhid olmuş peyğəmbər nəvəsinə 40 gün yas tutduğumuz halda, Qarabağ şəhidlərinə münasibətdə bunu etmirik. Yaxud başqa islam xəlifələrinə, peyğəmbərin özünə bu cür yas saxlanmadığı halda, İmam Hüseynə saxlanır?

Bu suallarda öz-özlüyündə müəyyən məntiq var əlbəttə və ilk baxışda onları verənlər xeyli haqlı görünürlər. Ancaq mən də bu sualları olduğu kimi həmin adamlara ünvanlayıram: sizcə niyə? Bunun səbəbi nədir? Nədən qaynaqlanır bu məsələ? Onun kökündə nə dayanır? Bu haqda düşündünüzmü?



Yəni düşünürsünüz ki, kimsə bunu öz siyasi məqsədləri naminə qabardaraq təbliğ edib və 1400 il yaşada bilib? Elə isə, görün necə də güclü ideologiyadır. Necə bacarıblar bunu?

Elə bilirsiniz ki, yalan-palanla yüz illər boyu davam edən belə bir inanc sistemi yaratmaq olardı? Mən inanmıram. Mümkün olsaydı, başqaları da yaradardı.

Ədəbiyyatda belə bir tezis var: ayağı yerdə olmayan heç bir fantaziya maraqlı, yapışıqlı, cəbedici və uzunömürlü ola bilməz. Məhəmməd Füzuli ilə eyni vaxtda Osmanlı sarayında onlarla şair bəslənirdi. Onlar divan ədəbiyyatının müxtəlif janrlarında bədii ifadə və təsvir vasitələri ilə son dərəcə zəngin bəzədilmiş qəzəllər, qəsidələr, məsnəvilər yazırdılar. Amma heç biri Füzuli qədər geniş yayıla, yaşaya, şöhrət qazana bilmədi. Çoxunuz onlardan birini belə tanımır, amma Türkiyədə Füzulini tanımayan yoxdur. Əsas səbəb odur ki, onların "zəngin" təxəyyüllərinin, ədəbi fantaziyalarının real əsası yox idi. Füzuli böyük romantik idi, ancaq onun qəhrəmanlarının ayağı yerdə idi. Füzulinin möhtəşəm əsərlərindən biri də Kərbəla müsibətinə həsr etdiyi "Hədiqətüs-süəda"dır. Mənası "Xoşbəxtlər bağçası" deməkdir.

Böyük Füzulinin həcmcə ən iri, həm də nəsrlə yazdığı möhtəşəm əsərindəki kiçik bir şeir parçasında şəhidliyi, intiqam almağı, dünyadan kam almaq üçün "nəqdi-can" sərf etməyi, düşmən qarşısında acizlik göstərməyib, çarpışıb-vuruşmağı insanın şərəf və ləyaqəti hesab edir:

**Zillət ilə ləzzəti olmaz həyatın, dostlar,**
**Nəqdi-can sərf eyləyib, dünyada kam almaq gərək.**
**Əcz ilə dönmək ədudan səhldir, himmət tutub,**
**Ya şəhid olmaq gərək, ya intiqam almaq gərək.**

Kərbəla hadisəsi nə qədər dini məzmunda təqdim olunsa da, onun məntiqi mənası, ruhu dünyəvi və bəşəridir. Buradakı şəhidlik, məslək və etiqad uğrunda mübarizə motivi hər zaman yenidir. İnsanın mənəvi və cismani köləliyə qarşı üsyanı, etirazı, bu yolda hətta öz həyatını qurban verməsi, şəhid olması ən yüksək və şərəfli insan amili kimi gösrtərilir. Bu əqidə və məslək döyüşü ona görə həmişə yaşayır ki, onun əsasında mənəvi paklıq, ruhi müqəddəslik, ülvilik və əzəmət var.

Kərbəla müsibəti qısa müddətdə böyük əks-səda və yanğı doğurub, zaman keçdikcə unudulmaq əvəzinə daha da geniş yayılıb. Həzrəti Hüseynin əqidə və imanı uğrunda böyük şücaət göstərərək şəhid olması qəhrəmanlıq və fədakarlıq rəmzinə çevrilib. Hüseynin şəhid olduğu Aşura günü ona yas tutub ağlamaq illər, əsrlər keçdikcə xalqın canına-qanına hopan ənənəyə çevrilib.

Əlbəttə, bütün faciələr kimi, bu faciədən də siyasi məqsədlər üçün istifadə edilib və bu gün də edilməkdədir. Ancaq bunlar həmin hadisənin böyük və anlamlı mahiyyətinə xələl gətirmir. Xalqın yaddaşına əbədi həkk olunmasının, unudulmamasının əsas səbəbi də, zənnimcə, budur. Peyğəmbər nəvəsinin, islam aləminin ikinci nüfuzlu şəxsi sayılan Həzrəti Əlinin oğlu İmam Hüseynin şərin, nahaqqın üzərinə qorxmadan getməsi, siyasət işlətməməsi, geri çəkilməməsi, bu yolda özünü və ailəsini qurban verməsi əqidəli, inanclı, haqsevər, məzlum, dərdli insanlarda istər-istəməz riqqət doğurur. Onlar öz dərlərinə qalib gəlmək üçün bir növ Hüseynin faciəsinə söykənir, ondan güc alırlar. Ölümün gözünə dik baxmağı, haqq yolunda, əqidə yolunda, Vətən yolunda şəhid olmağı Hüseyndən öyrənir, hər ilin bir ayını bu dəhşətli vaqiəni anır, Kərbəla şəhidlərinə yas saxlayır, ehtiram göstərirlər.

Onu da bildirim ki, Füzuli Kərbəla müsibətinə əsər həsr etmiş yeganə şair və yazıçı deyil. Bu hadisə baş verdiyi gündən etibarən ona yüzlərlə əsər ithaf olunub və xalq arasında, müsəlman dünyasında geniş intişar tapmasının əsas səbəblərindən biri də budur. Özü də ilk dövrdə bu əsərlər öz-özünə yaranıb, yəni təbii şəkildə, müəlliflərin öz təşəbbüsü ilə yazılıb. Nə sifariş olunub, nə hər hansı dövlət tərəfindən təşkil edilib, nə də bəxşiş, qonorar naminə qələmə alınıb. Şərq aləmində "Leyli və Məcnun" qəmli sevgi hekayəsi olaraq şöhrət qazandığı kimi, Kərbəla müsibəti də mübarizlik və dönməzlik, əqidə və şəhidlik dastanı olub.

İndi kimlərinsə bunu xalqın yaddaşından silməyə, ona "səhv yolda" olduğunu təlqin etməyə çalışması bir qədər mənasız və qeyri-ciddi davranışdır. Düşünürəm ki, bu hətta əks effekt verə bilər. Bəzi insanları qıcıqlandırar, bir çoxlarında haqlı suallar yaradar.

Axı niyə insanların inancına, müqəddəs bildiyi dəyərlərə qarışılır, hörmətsizlik göstərilir?

Başqa vaxt toya qarşı çıxanlar niyə bu ayda israrla onu təbliğ edirlər? Yəni bu ayda toy etmək bu qədərmi vacibdir? Bu qədərmi, necə deyərlər, taleyüklü məsələdir? Məgər ilin 11 ayını toy çaldıran toplum, bir ayını etməsə, dünya dağılar?

Bəlkə, kimlərsə bunu öz iqtisadi maraqları naminə stimullaşdırır? Yəni məsələn, şadlıq evləri şəbəkəsi toyların məhərrəmlikdə də davam etməsini istəməklə daha çox qazanc əldə etməyə çaslışır. Ola bilməzmi? Əlbəttə, olar!

Xalqımızın əksər hissəsinin inancına hopan, böyük çoxluğun müqəddəsləşdirdiyi, tapındığı bir şeyi birdən-birə kimlərinsə gözdən salmağa çalışmasının, kampaniya aparmasının hansı pozitiv tərəfləri ola bilər? Tutaq ki, məhərrəmlikdə də toy etməyə başladıq, bu bir toplum olaraq bizə nə verir? Bundan nə qazanırıq axı?

Bəlkə, heç olmasa bir ay əlimizə gələni qarnımıza doldurub, sanki harasa tələsən bayağı müsiqilərə dingildəməyi, atılıb-düşməyi, xoruz səsini xatırtladan müğənnilərə qulaq asmağı dayandırmaq daha faydalı olar?

Mənə görə, Məhərrəmlikdə toy etmək həm də ürək-könül məsələsidir. Peyğəmbər nəslinə qəddarcasına soyqırım edildiyi bir ayda toy, şadyanalıq etməmək daha doğru olardı. Şəxsən mənim ürəyim qəbul etməz(azvision).

***Nadir Qocabəyli***

***P. S. Onu da bildirim ki, sovet hakimiyyətinin məhərrəmliklə mübarizəsi Həzrəti Hüseynə olan sevgini daha da artırmışdı. Məscidlər olmasa da, insanlar Aşura günləri evlərdə gizli mərasimlər keçirir, şəbihlər təşkil edir, mərsiyə deyir, sinə və zəncir vurur, radioqəbuledicilər vasitəsilə İran radiolarına qulaq asırdılar. Məncə, məhərrəmlikdə toyu təbliğ etməkdənsə, mərasimləri daha yüksək səviyyədə, daha mədəni, sivil, yaxşı təşkil etmək haqqında düşünmək lazımdır.***



# TBMM üzvü: "ABŞ müttəfiqini satdı, Talibanla anlaşdı"

***"Bir sel dalğası gəlirdi. Amerika da bunun qarşısını almağın mümkün olmadığını anladı və o zamana qədər müttəfiqim dediyi hökuməti sataraq Talibanla anlaşdı".***

"Unikal" xəbər verir ki, bunu MediaTürk TV-yə müsahibəsində Türkiyə Böyük Millət Məclisinin (TBMM) İslam Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasındakı nümayəndə heyətinin rəhbəri, AKP millət vəkili Orhan Atalay deyib.

Türkiyənin Əfqanıstanla səmimi, tarixi köklərə, dostluq və qardaşlığa dayanan bir əlaqələrə sahib olduğunu deyən millət vəkili ölkəsinin Azərbaycanla olduğu kimi Əfqanıstanla bağlı da başlıca gözləntilərinin bu ölkədə qısa zamanda sülh və əmin-amanlığın təmin olunmasıdır:

"Türkiyənin təməl prinsipi budur. Türkiyə indiyə qədər Əfqanıstanda heç bir kəsimin yanında, digərinin qarşısında olmadı. Türk əsgəri nə vaxt Əfqanıstana getdisə o torpaqlarda ən rahat dolaşan əsgərlər bizim əsgərlər oldu. Çünki Türkiyənin orada pis bir niyyət güdmədiyini, başlıca məqsədinin əfqan qardaşlarının daha az acı çəkib bir an öncə sülhə nail olmaları olduğunu bütün əfqan xalqı illərdir bilir. Sovetlər Əfqanıstanı işğal etdiyi ilk illərdən oradan çıxıb gedənə qədər əfqanların sıralarında türkiyədən gedən çox sayda mücahid vardı. İstər hökumət üzvləri olsun, istərsə də xalq olaraq bizim Əfqanıstanla bağlı başlıca məqsədimiz bir an öncə bu ölkədə sülh və sabitliyin təminatıdır. Bu sülh və sabitliyi kim təmin edirsə etsin, həmin sərhədlər çərçivəsində qaldığı, xalqına zülm etmədiyi, xalqının rifahı üçün çalışdığı müddətcə Türkiyə onlara hər cür dəstəyi verməyə hazırdır. Türkiyə Cümhuriyyəti azərbaycanlı qardaşlarına yardım əlini necə uzatdısa əfqan qardaşlarına da yardım əlini uzadacaq".

Orhan Atalay türkiyəli və azərbaycanlı sülhməramlıların da hələlik Əfqanıstanda qalmasını məqsədəuyğun hesab edir.

Onun sözlərinə görə, əfqanlar "bizim sizə ehtiyacımız var" deyir. Nə zaman istəmədiklərini söylərlərsə, türk hərbçiləri də o zaman bu ölkədən çıxarılacaq.

# Yeni Əfqan labirinti niyə yaradılıb və Türkiyə ora niyə salındı - TƏHLİL

***Tarixən "imperiyaların qəbirqazanı" adlandırılan Əfqanıstan növbəti təlatümlə üzləşib. Uzun illərdir ki, dünyanın fövqəlgücü olan ABŞ-ın təşəbbüsü ilə digər böyük dövlətlər, habelə BMT tərəfindən terrorçu təşkilat kimi tanınaraq təqib edilən və artıq paytaxt Kabili ələ keçirən "Taliban" hərkatı qısa bir müddətdə bütün ölkəyə nəzarətə yiyələnib.***

Taliblər hətta keçid hökuməti yaradılması barədə təklifləri də rədd edərək, ölkə daxilində sabitliyə riayət olunacağını, siyasi rəqiblərini təqib etməyəcəklərini, diplomatik nümayədəliklərin əməkdaşlarına toxunmaycaqları və Əfqanıstandan kənara öz təsirlərini yaymaq yönündə cəhdlər göstərməyəcəkləri vədini veriblər. Lakin artıq ölkənin ən böyük şəhərlərindən gələn həyəcan siqnalları və ABŞ-ın, NATO-nun Əfqanıstandakı təmsilçiləri ilə məsləhətləşmələrdən sonra prezident Əşrəf Qaninin vətənini təcili tərk etməsi tam əks əhval-ruhiyyədən xəbər verir. Bunu ABŞ səfirliyində ötən gün ərzində sənədlərin məhv edilməsi, amerikalı vətəndaşların təhlükəsizliyinin təmin olunması və ölkədən çıxarılması üçün mindən çox hərbçinin göndərilməsi qərarı da təsdiqləyir.

20 il əvvəl "Əl-Qaidə" terrorçu təşkilatı ilə mübarizə adı altında Əfqanıstana hərbi müdaxiləyə başlayan və hətta bunun üçün beynəlxalq koalisiya yaradan ABŞ-ın buranı tərk etməsi çox maraqlı məqamdır. Bir sıra Şərq ölkələrində olduğu kimi, əvvəlcə Əfqanıstanda da legitim hakimiyyəti (burada 1996-200-ci illərdə məhz taliblər hakimiyyətdə idilər) devirərək, ölkənin altını üstünə çevirmiş, minlərlə dinc sakinin qətlini adi hala döndərmiş, kütləvi saxtakarklıqlarla müşaiyət olunan "seçkilər"ə əsasən rəhbər kürsüsünə oturtduqları siyasətçilərin öz hakimiyyətini qoruması üçün pis-yaxşı hərbi qüvvələr formalaşdırmış ABŞ-ın indi belə asanlıqla aradan çıxması həqiqətənmi Co Baydenin xarici siyasət kursununmu nəticəsidir? Yoxsa, bəzilərinin dediyi kimi, Vaşinqtonun son iki-üç onillkdə yürütdüyü hegemonluq siyasətinin iflası?

İlk baxışdan belə təəssürat yaransa da, Vaşinqtonun çevik xarici siyasət mexanizmi tam başqa mətləblərdən xəbər verir. Vaşinqton artıq uzun illərdir ki, "idarəolunan xaos" nəzəriyyəsinə əsaslanan "parçala və hökm sür" siyasətini yürdür. Məhz bu konsept çərçivəsində ayrı-ayrı ölkələrdə və bütöv bölgələrdə ədavət toxumu səpdikdən sonra oraları tərk edir, yerli siyasi qüvvələrin uzunmüddətli qanlı-qadalı qarşıdurmasına zəmin hazırlayır. Yaxın Şərqdə nə vaxt bitəcəyi çətin proqnozlaşdırılan çəkişmələr və toqquşmalar bunun əyani sübutudur.

Bu baxımdan, Əfqanıstan məsələsi xüsusi diqqətə layiqdir. Ötən əsrin 70-ci illərinin sonunda amerikalı geostrateq Zbiqnev Bzejinskinin planı əsasında SSRİ-ni məharətlə Əfqanıstan avantürasına sürükləyən ABŞ son nəticədə İttifaqının süqutuna nail ola bildi. Sovet qoşunları 1989-cu ildə Əfqanıstandan çıxdıqdan sonra çoxmillətli ölkədə müxtəlif etnosları təmsil edən silahlı qruplaşmalar arasında hərbi toqquşmalar xeyli şiddətlənsə də, nəticədə "Taliban" hərəkatı vahid hakimiyyətə yiyələnə bildi. Nə qədər təəccüblü görünsə də, məhz "Taliban"ın hakimiyyəti dövründə Əfqanıstanda həyat yavaş-yavaş qaydasına düşməyə başladı. Əsas uğur isə narkotik vasitərləin istehsalı ilə mübarizə müstəvisində qazanıldı: Həmin illərdə Əfqanıstnda tiryək istehsalının ildə cəmi 50 tona qədər endirilmişdi. Lakin 2001-ci ildə ABŞ-ın müdaxiləsindən sonra Əfqanıstanda bu rəqəm 6000 tonu keçdi. Müstəqil araşdırmalara görə, bu yöndə amerikanın özəl hərbi şirkətləri çox fəal olublar. Son 20 ildə Əfqanıstandan ixrac edilən qanunsuz narkotik maddələrin 70%-ə qədəri məhz Rusiyada özünə satış bazarı tapıb.

Böyük ehtimalla, Vaşinqton indi də Rusiya üçün Əfqanıstanla bağlı yeni başağrısı planı hazırlayıb. Bütün cəhdlərə baxmayaraq, Mərkəzi Asiyada Moskvanın nüfuzunu sındıra bilməyən ABŞ gizli danışıqlar yolu ilə Əfqanıstanda hakimiyyəti məhz taliblərə güzəştə gedərək, onların Mərkəzi Asiyaya islam radikalizmini ixrac etməsinə kart-blanş verib. Bu mənada, Şimali Əfqanıstanın lideri və bir müddət əvvəl Əfqanıstanı taliblərin qəbiristanına çevirməyi vəd edən marşal Rəşid Dustumun təcili surətdə öz vətəni Özbəkistana keçməsi gələcəkdə böyük fəsadlara yol aça bilər.

Belədə, Vaşinqtonun son zamanlar xeyli güclənmiş Rusiyanın postsovet məkanında reallaşdırmağa çalışdığı inteqrasiya proseslərinə Mərkəzi Asiya kimi böyük bir məkanda ciddi zərbə endirmək niyyətini inkar etmək mümkün deyil. Sözsüz ki, bütün bunları nəzərə alan Moskva Əfqanıstan hadisələrini diqqətlə izləyir və taliblərlə dialoqa və əməkdaşlığa hazır olduğunu bildirir.

Əlbəttə ki, İran faktorunu da unutmaq olmaz: ABŞ-a münasibətdə radikal qüvvənin hakimiyyətə gəldiyi bu şiə ölkəsinin qonşuluğunda aqressiv sünni rejiminin yaradılması Vaşinqtonun planlarının digər cinahı haqda düşünməyə əsas yaradır. Bu kontekstdə Türkiyənin gündəmə gətirilməsi narahatlıq doğurur. Təxminən 2 ay əvvəl Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın amerikalı həmkarı Co Baydenlə görüşündə ABŞ hərbi kontingentinin Əfqanıstandan çıxdıqdan sonra Türkiyə hərbçilərinin Kabildəki aeroportun təhlükəsizliyini təmin etmək üçün burada qalacağı barədə anlaşma əldə olunduğu barədə məlumat açıqlandı. Bunun üçün Vaşinqtonun Ankaraya lazımi dəstək göstərəcəyi də bildirildi. Bu məramı qıcıqla qarşılayan "Taliban" Əfqanıstanda hakimiyyətə gəldikdən sonra Türkiyə ilə sıx əməkdaşlıq quracağını və buna görə də Kabil aeroportunu qorumaq üçün türk hərbçilərinin iştirakına gərək olmadığını açıqladı.




Digər tərəfdən, Əfqanıstandakı türk kontingenti heç vaxt hərbi əməliyyatlarda iştirak etməyib və Türkiyə bu ölkədə xeyli təsirə malik olan Pakistanla müttəfiqlik münasibətlərinə malikdir. Son zamanlar istər Yaxın Şərqdə, istər müsəlman aləmində, istərsə də qlobal miqyasda nüfuzunu xeyli gücləndirmiş Ankaranın Əfqanıstanda sülhün və sabitliyin yaradılmasına ciddi töhfə verəcəyinə ümidlər çoxdur. Lakin bu məsələdə maraqları daban-dabana zidd olan ABŞ-la Rusiyanın məhz Türkiyəni Əfqanıstana çəkməklə bağlı unison avazları çox müəmmalı görünür. Hər iki dövlətin tarixən "ilanı Seyidəhməd əli tutmaq" siyasəti yürütdüyünü nəzər alsaq, onların indi də Türkiyəni növbəti avantüraya sürükləmək məqsədi güdmədiklərinə kim təminat verə bilər? Xüsusilə də, öz milli maraqlarını müttəfiqlik anlayşından qat-qat üstün tutan güc mərkəzlərinin "səmimiyyət"inin bir qara qəpiyə dəyməədiyini nəzərə alsaq. Əks təqdirdə, Vaşinqton və Moskvanın hələ də BMT, ABŞ və Rusiya tərəfindən adı beynəlxalq terrorçu təşkilatlar siyahısından çıxarılmamış "Taliban"la əvvəllər gizlin, sonra isə aşkar sövdələşmələr aparmasını necə anlayasan?

***Sahil İsgəndərov, politoloq***

# Tarixdə 5-ci - 7 ildən sonar

TOPAZ PREMYER LİQASI

***Azərbaycan futbolu tarixində 5-ci dəfə ölkəmizin iki klubu avrokubokların pley-off mərhələsində oynayır.***

Həmişə hər iki təmsilçimiz eyni turnirdə qrupun bir addımlığında olub.

Bütün hallarda komandalardan biri Çempionlar Liqasını tərk edən klub, digəri aşağı dərəcəli turnirin iştirakçısıdır.

Əvvəlki 4 belə mövsümdə bizim cütlük Avropa Liqasında pley-off oynayıb. Bu dəfə belə hadisə Konfrans Liqasında yaşanıb.

İlk dəfə belə hadisə 2009/10 mövsümündə qeydə alınıb. Lakin 12 il öncə klublardan - "Bakı" və "Qarabağ"dan heç biri qrupa düşə bilməyib.

7 il əvvəl indiki kimi "Neftçi" və "Qarabağ" pley-offda qüvvəsini sınayıb. Lakin indikindən fərqli həmin komanda çempion kimi mövsümə başlayıb. Məhz onlar da qrupa düşməyə nail olub. Sonrakı iki ildə "Qarabağ"la "Qəbələ" pley-offda olduğu kimi qrupda da birlikdə çıxış edib.

**Pley-offda 2 komandamızın olduğu mövsümlər**
**Avropa Liqası**

2009/10 - "Bakı" və "Qarabağ"
2014/15 - "Qarabağ" və "Neftçi"
2015/16 - "Qarabağ" və "Qəbələ"
2016/17 - "Qarabağ" və "Qəbələ"
Konfrans Liqası
2021/22 - "Neftçi" və "Qarabağ"

Qeyd: Çempionlar Liqasından yuvarlanan komanda öndə göstərilib.

# Daha bir yarımfinal - dünya çempionatında

***Rusiyanın Ufa şəhərində gənc güləşçilərin dünya çempionatı davam edir.***

Apasport.az saytının məlumatına görə, dördüncü yarış günündə 3 qadın güləşçimiz mübarizəyə qoşulub.

Elnurə Məmmədova təsnifat mərhələsində monqolustanlı həmkarına məğlub olub.

Yarışa 1/4 finaldan qoşulan Birgül Soltanova Qırğızıstan güləşçisiylə gərgin keçən görüşdən qalib ayrılaraq adını yarımfinala yazdırıb.

Nigar Mirzəzadə ilk görüşdə Macarıstan idmançısına "tuşe" ilə qalib gəlib. Ancaq 1/4 finalda Rumıniya təmsilçisinə uduzub.

Qeyd edək ki, yarımfinal qarşılaşmaları Bakı vaxtı ilə saat 15:45-də başlayacaq.



**53 kq**
Təsnifat: Elnurə Məmmədova - Otqontuya Çinbold (Monqolustan) 2:12
**62 kq**
1/4 final: Birgül Soltanova - Dilnaz Sazanova (Qırğızıstan) 9:7
1/2 final: Birgül Soltanova - Devi Sancu (Hindistan)
**65 kq**
1/8 final: Nigar Mirzəzadə - Noemi Şabados (Macarıstan) 7:5 (tuşe)
1/4 final: Nigar Mirzəzadə - Amina Kapezan (Rumıniya) 1:3

# Yığmanı mübarizəyə səslədi - millimizin voleybolçusu

***"Voleybol üçün çox darıxmışam. Məlum səbəblərdən bu Avropa çempionatında iştirak edə bilmirəm".***

Bunu Azərbaycan millisinin voleybolçusu Yelizaveta Krneta deyib.

Ruban və Səmədova soyadları ilə tanınan voleybolçu "Zirə"nin sabiq futbolçusu Yovan Krneta ilə ailə həyatı qurub. Analıq məzuniyyətində olduğu üçün bir müddət voleyboldan kənar qalan ulduz oyunçumuz qadınlar arasında Avropa çempionatının final mərhələsi barədə fikirlərini açıqlayıb: "Hazırda Serbiyadayam və yavaş-yavaş burada fiziki məşqlərə başlayıram. Avqustun 20-də komandamız çempionatın ilk matçına çıxacaq. İkiqat sevincliyəm. Çünki Azərbaycan millisi qrup oyunlarını Serbiyanın paytaxtı Belqradda oynayacaq. Çalışacam komandamın bütün oyunlarını arenadan izləyim və onlara dəstək olum".

Yelizaveta yığmadakı komanda yoldaşları ilə daim əlaqədə olduğunu da bildirib: "Deməli olar ki, hər gün komanda yoldaşlarımla danışırdım. Millimiz Avropa çempionatına iki ay hazırlıq keçib və yoxlama oyunlarında gücünü yoxlayıb. Mənim fikrimcə, hər bir komandada müəyyən problemlər olur. Amma belə mötəbər yarışda çıxış edən komandanı dəstəkləyən insanlar onlardan yalnız gözəl oyun və qələbə gözləyir. Düzdür, bu Avropa çempionatında bəzi voleybolçularımız məlum səbəblərdən iştirak etmir və komandamız güclü rəqiblərlə bir qrupda mübarizə aparır. Düşünürəm ki, Avropa çempionatında iştirak edən hər bir komanda güclüdür".

Voleybolçu yığma üzvlərini mübarizə aparmağa səsləyib: "Buna görə qızlarımız hər setdə, hər matçda sona kimi mübarizə aparmalı və öz oyunlarını mükəmməl oynamalıdırlar. Komandamıza uğurlar arzu edirəm. İnanıram ki, onlar yaxşı çıxış edəcəklər".

# "Bavariya" qiymət qoydu - Levandovskiyə

***Polşa millisinin futbolçusu Robert Levandovski Almaniyanın "Bavariya" klubunu tərk etmək niyyətindədir.***



Apasport.az saytının məlumatına görə, hücumçu Avropanın digər aparıcı klubuna keçmək arzusundadır.

Lakin "Bavariya" rəhbərliyi polşalı forvard üçün 117 milyon avro tələb edir. Bu qiymət potensial müştəriləri qorxuda və Robertin keçidinə mane ola bilər.

Qeyd edək ki, hücumçu ötən mövsüm 40 oyunda 48 qol vurub. Onun Münhen təmsilçisi ilə müqaviləsi 2023-cü ilin yayında başa çatacaq.

# "Messinin gedişi bizə kömək edə bilər" - "Real"lıların Mbappe ümidi



***"Real"ın yarımmüdafiəçisi Toni Kroos "Barselona"nın kapitanı Lionel Messinin PSJ-yə keçidini dəyərləndirib.***

Apasport.az saytının məlumatına görə, almaniyalı orta sahə oyunçusu buna sevindiklərini gizlətməyib.

Ulduz futbolçu əzəli rəqibin zəifləməsi fonunda özlərinin də güclənəcəyini düşünür. Kroos açıqlamasında Messinin keçidi sayəsində Kilian Mbappenin də "Real"a transfer olunacağına ümid etdiklərini üstüörtülü söyləyib: "Messinin gedişi "Real"a kömək edə bilər. Çünki əsas rəqibimiz ən yaxşı oyunçusunu itirdi. Bəlkə də, bu sayədə PSJ-dən bir oyunçu bizə qoşulacaq". Qeyd edək ki, PSJ ilə müqavilə müddəti gələn ilin yayına qədər olan Kilian Mbappe karyerasını "Real"da davam etdirmək istəyir.

# Portuqaliyalı ulduza elçi düşdü - "Barselona"

***İngiltərənin "Mançester Siti" klubunun futbolçusu Bernardu Silva komandasını dəyişir.***

Apasport.az saytının məlumatına görə, 27 yaşlı yarımmüdafiəçi karyerasını İspaniyada davam etdirmək variantlarını nəzərdən keçirir.

"Barselona" rəhbərliyi onun xidmətində maraqlıdır. La Liqa təmsilçisi "Mançester Siti"yə oyunçu dəyişikliyi təklif edib. Lakin ingiltərəlilər Bernardunu satmağı planlaşdırır.

"Atletiko" da heyətini ulduz ilə gücləndirməyə can atır. Lakin madridlilər onun transferi üçün hansısa futbolçusunu satmalıdır. Qeyd edək ki, Bernardu üçqat İngiltərə çempionudur.

# "Neftçi" aşkar zəifdir" - HİK-in baş məşqçisi

***"Bu mövsüm ən zəif performansımızı "Neftçi"yə qarşı son matçın ilk hissəsində göstərmişik".***

Apasport.az saytının məlumatına görə, bunu Avropa Liqasının III təsnifat mərhələsində "Neftçi"ni məğlub edən HİK-in baş məşqçisi Toni Koskela deyib.

Çalışdırıcı pley-offda qarşılaşacaqları "Fənərbaxça" ilə matça daha rahat hazırlaşdıqlarını bildirib: "Neftçi" ilə matçda iştirak edən futbolçuların hamısını İstanbula gətirmişik. Bu mövsüm avrokuboklardakı rəqiblərimizdən "Fənərbaxça" və "Malmö" güclü komandalardır, onları müqayisə etmək çətindir. Təbii ki, "Neftçi" açıq futbol oynayan "Fənərbaxça"dan aşkar zəifdir. Ancaq Türkiyə klubunun necə oynadığını bildiyimiz üçün onlara qarşı hazırlaşmaq daha asandır".

Qeyd edək ki, "Neftçi" ilə Bakıdakı qollu bərabərlikdən (2:2) sonra öz meydanında 3:0 hesablı qələbə qazanan HİK bu gün pley-off mərhələsinin ilk matçında "Fənərbaxça"nın qonağı olacaq.